**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАУЧНО – ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

*На правах рукописи*

**ГУСЕЙН РАМИЛ ЗАХИД ОГЛЫ**

# ПРОБЛЕМЫ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРОДУКЦИИ РАСТЕНИЕВОДСТВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Специальность: 5312.01 – “Экономика отрасли”**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора наук по экономике**

**БАКУ – 2017**

**AZƏRBAYCAN RESRUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RAMİL ZAHİD OĞLU HÜSEYN**

# AZƏRBAYCAN RESPUBLİKASINDA BİTKİÇİLİK MƏHSULLARININ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ARTIRILMASI PROBLEMLƏRİ

**İxtisas: 5312.01 – “Sahə iqtisadiyyatı”**

**İqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

**Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.**

**Elmi məsləhətçi:** ___________________________

**Rəsmi opponentlər**: iqtisad üzrə elmlər doktoru, professor
**Rövşən Rasim oğlu Quliyev**
iqtisad üzrə elmlər doktoru, professor
**Ağarza Ağahəsən oğlu Rüstəmov**
iqtisad üzrə elmlər doktoru, dosent
**Akif Həmzə oğlu Vəliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Müdafiə «____ » _____________ 2017 – ci il saat _____- da Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında ona verilən birdəfəlik doktorluq dissertasiyasının müdafiəsini keçirmək səlahiyyətinə uyğun olaraq aşağıdakı ünvanda olacaqdır:

**Ünvan:** Bakı şəhəri N.Nərimanov rayonu, Az.29, 8-ci Köndələn, III mərtəbə, akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat « ____ » sentyabr 2017 – ci ildə göndərilmişdir.

**FD.04.014 Dissertasiya Şurasının**
**elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru: V.R.Rzayev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Azərbaycan Respublikasında kənd təsərrüfatı iqtisadiyyatın əsas sahəsi kimi ərzaq təhlükəsizliyinin təmin olunmasında, əhalinin məşğulluğunda, qeyri-neft sektoru üzrə ixracın artmasında, ölkənin iqtisadi və sosial problemlərinin həllində böyük rol oynayır. Məhz bunun üçün kənd təsərrüfatında dayanıqlı inkişafın təmin edilməsi, məhsulların rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi müstəsna əhəmiyyətə malikdir. Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında mühüm paya sahib olan bitkiçilik məhsulları son illər daxili və xarici bazarda kəskin rəqabətlə üzləşmişdilər. Bu isə Azərbaycan Respublikasında bitkiçilik məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinin zəruriliyini şərtləndirir. Çünki bitkiçilik məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi qeyri-neft sektoru üzrə ixracın artırılmasına, idxalın əvəzləməsinə ciddi təsir göstərməklə yanaşı, ölkədə rəqabətqabiliyyətli aqrar sahənin formalaşmasına və ÜDM-in artmasına töhfə vermiş olacaqdır.

Qeyd edək ki, rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hökumətin qarşısında qoyduğu əsas vəzifələrdəndir. Ölkə başçısı Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı çıxışında “Biz rəqabətqabiliyyətli məhsulların istehsalını artırmalıyıq” – deyərək həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli olan məhsulların istehsalı istiqamətində fəaliyyətin davam edəcəyini vurğulayıb: “İndiki mərhələdə rəqabətqabiliyyətli məhsulların istehsalına daha da böyük diqqət yetirilməlidir. İlk növbədə, biz daxili bazarı rəqabətqabiliyyətli məhsullarla təmin etməliyik ki, Azərbaycan vətəndaşları ölkədə istehsal olunan ən yüksək keyfiyyətli məhsullarla təmin edilsinlər. Ona görə, hesab edirəm ki, rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması ən vacib prioritetlərdən biri olmalıdır”.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda da rəqabətqabiliyyətli məhsul istehsalı ilə bağlı problemin həllinə diqqət çəkilir və kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə emal müəssisələrində mütərəqqi texnologiyaların tətbiqinin dəstəklənəcəyi vurğulanır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə də rəqabətqabiliyyətli məhsul istehsalının artırılması məsələsi öz əksini tapmışdır. Strateji Yol Xəritəsinin 2020-ci ilədək strateji baxışı dayanıqlı inkişaf prinsiplərinə əsaslanan, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, iqtisadiyyatın şaxələndirilməsinə və kənd yerlərində sosial rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalı və emalı sektorunun formalaşdırılması üçün əlverişli mühit yaratmağı nəzərdə tutur. Strateji Yol Xəritəsinin prioritetlərindən biri isə həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsidir. Bu prioritetlərin uğurlu şəkildə reallaşdırılması ölkəmizin kənd təsərrüfatı istehsalı üzrə mövcud potensialının müasir yanaşmalar əsasında qiymətləndirilməsini və səmərəli istifadə edilməsi yollarının müəyyənləşdirilməsini zəruri edir.

Beynəlxalq təşkilatların, habelə bir çox yerli qurumların hesabatlarında da Azərbaycanda qeyri-neft sektorunun, xüsusilə də kənd təsərrüfatının rəqabətqabiliyyətliliyinin artırılmasının ölkənin davamlı inkişafı üçün çox vacib olduğu önə çəkilir. Kənd təsərrüfatı əlavə dəyəri daha yüksək olan məhsulların istehsalına və daha iri kommersiyalaşmaya keçməsinin zəruriliyi vurğulanır. Bu baxımdan bitkiçilik məhsullarının rəqabət qabiliyyətinin artırılmasının ixrac potensialını gücləndirməklə yanaşı məşğulluğun təmin olunması üçün də böyük töhfə verəcəyi qeyd edilir.

Ölkədə uğurla həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatında əsaslı irəliləyişlər baş vermişdir. Bir çox ərzaq məhsulları üzrə respublikanın özünütəminetmə səviyyəsi yüksəlmişdir. Eyni zamanda ölkədə istehsal olunan bitkiçilik məhsullarının daxili və xarici bazarda rəqabət qabiliyyətinin təmin olunması istiqamətində müsbət nəticələr qazanılmışdır. Belə ki, Balassa indeksi metodu ilə qiymətləndirilmənin nəticələrinə görə 2000-2002-ci illər ərzində belə məhsulların ümumi sayı 20 idisə, 2010-2014-cü illər üzrə bu göstərici 30-a çatmışdır. Xalis İxrac İndeksi metodu ilə aparılan hesablamaların nəticələrinə görə 2000-2002-ci illər ərzində əmsalı yüksək olan məhsulların ümumi sayı 33, 2010-2014-cü illər üzrə isə 42 olmuşdur.

Bununla yanaşı, respublikamızda bitkiçilikdə rəqabətqabiliyyətli məhsul istehsal etmək potensialı daha böyükdür və bu potensialdan



tam istifadə etmək üçün elmi cəhətdən əsaslandırılmış müvafiq təkliflərin hazırlanması mühüm əhəmiyyətə malikdir.

Qeyd olunanlar bazar iqtisadiyyatı şəraitində bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması problemlərinin aktuallığına dəlalət edir və bu istiqamətdə tədqiqatın aparılmasının bir daha zəruriliyini göstərir.

**Problemin öyrənilməsi vəziyyəti.** Qeyri-neft sektorunda, xüsusən də aqrar sahədə rəqabətqabiliyyətliliyin artırılması probleminə Azərbaycan iqtisadçı alimləri tərəfindən mütəmadi olaraq müraciət edilmişdir. Bu araşdırmalar nəticəsində problemlə bağlı maraqlı fikirlər irəli sürülmüş və təkliflər hazırlanmışdır. Belə ki, bazar münasibətlərinin formalaşması mühitində aqrar sahənin inkişafının nəzəri-metodoloji və təcrübi aspektlərini Səmədzadə Z. Ə., Salahov S. V., Balayev R. Ə., Ataşov B. X., Xəlilov H. A., İbrahimov İ. H., İsgəndərov R. K, Alıyev İ. H., Quliyev R. R., Rüstəmov A. A., Cəbiyev R. M., Abbasov V. H., Abbasov A. F., Abbasov T. A., Əliyev R. B., Əhmədov A. T., Əhmədov İ. V., Qarayev İ. Ş., Quliyev E. A., Hüseynov M. C., Muradov Ə. C., Musayev M. Q., Cavadov N. Ə. Verdiyev Ə. Ç., Vəliyev A. H., İbrahimov M. A., Hüseynəliyev R. N., Rzayev F. F., Mehdiyev M. M. və bir çox Azərbaycan iqtisadçı alimləri tədqiq etmişlər.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyinin təmin edilməsi ilə bağlı 2000-ci ildən etibarən Dünya Bankının ("Kənd təsərrüfatının kreditləşdirilməsi layihəsi" çərçivəsində) və bir sıra beynəlxalq təşkilatların dəstəyi ilə xarici ekspertlər tərəfindən araşdırmalar aparılmış və müvafiq hesabatlar hazırlanmışdır. Ancaq nəzərə almaq lazımdır ki, bu tədqiqatlar istehsalçıların məhdud dairəsini və az sayda məhsulu əhatə etmişdir. Həmin araşdırmalarda bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyi məsələsinə kompleks yanaşılmamışdır.

Müasir şəraitdə ölkələrin malik olduğu mütləq və müqayisəli üstünlüklərin müəyyənləşdirilməsi ilə bağlı klassik iqtisadın nümayəndələri – A.Smit, D.Rikardo və digərləri tərəfindən irəli sürülən nəzəri müddəalar əsasında dünya iqtisadiyyatının çağdaş inkişaf meyilləri nəzərə alınmaqla M. Porter, M. Pozner, R. Vernon, R. Falvey, P. Kruqman, A. Vebster, B. Balassa və başqa Qərb iqtisadçıları tərəfindən tədqiqatlar aparılmış, rəqabət üstünlüyü nəzəriyyəsi irəli sürülmüşdür.

Bununla yanaşı, son dövrlərdə M.Gorton, S.Davidova, D. Harvey, A. Balkyte və digərləri Avropa Birliyinin üzvü olan ölkələrdə rəqabətqabiliyyətlilik ilə bağlı dəyərli tədqiqatlar aparmışlar.

Azərbaycan Respublikasında bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyi probleminin öyrənilməsi isə ayrılıqda tədqiqat obyekti olmamışdır. Bununla əlaqədar bitkiçilik məhsullarının rəqabətqabiliyyətlilik amilləri, şərtləri, məhsulların daxili və xarici bazarda rəqabətqabiliyyətliliyinin təmin edilməsinin əsas istiqamətləri sistemli olaraq tədqiq edilməmişdir. Azərbaycanda adlarını qeyd etdiyim tədqiqatçılar bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması problemlərini məxsusi olaraq araşdırmağı qarşılarına məqsəd qoymamışdılar. Məhz bu iş Azərbaycan Respublikasında bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması probleminə həsr olunmuş ilk əhatəli tədqiqatdır.

**Tədqiqatın məqsədi və vəzifələri**. Tədqiqat işinin məqsədi qloballaşma şəraitində Azərbaycan Respublikasının bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyini və kənd təsərrüfatı istehsalı üzrə rəqabət üstünlüyünü qiymətləndirmək, onların formalaşması amillərini aşkar etmək və səmərəli istifadə edilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- ölkədə bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsinin nəzəri-metodoloji aspektlərinin araşdırılması;
- müqayisəli üstünlüklər və rəqabət üstünlüyü nəzəriyyələrinə müasir yanaşmaların araşdırılması;
- bitkiçilikdə idxalın əvəzlənməsi imkanlarının və onun reallaşdırılması istiqamətlərinin müəyyən olunması;
- bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyi və ərzaq təhlükəsizliyi paradiqmalarının uzlaşdırılmasının tədqiqi;
- Azərbaycan Respublikasının bitkiçilik məhsulları istehsalı üzrə malik olduğu rəqabət üstünlüyünün müəyyənləşdirilməsi və bu üstünlüklərdən istifadə sahəsində müasir vəziyyətin kompleks şəkildə qiymətləndirilməsi;
- ölkədə həyata keçirilən aqrar siyasət tədbirlərinin bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin reallaşmasına göstərdiyi təsirin müəyyənləşdirilməsi;
- ixracyönümlü bitkiçilik məhsulları istehsalının inkişaf istiqamətlərinin müəyyən edilməsi;
- bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinə emal sferasının təsirinin öyrənilməsi;
- modernləşdirmə əsasında bitkiçilik məhsulları istehsalının iqtisadi səmərəlilik parametrlərinin yaxşılaşdırılması ilə bağlı təkliflərin hazırlanması;



- bitkiçilik təsərrüfatlarının rəqabətqabiliyyətliliyinin təmin edilməsi məqsədləri önə çəkilməklə onların ölçülərinin optimallaşdırılması imkanlarının öyrənilməsi;
- bitkiçilik məhsulları istehsalçılarına dövlət dəstəyinin müasir vəziyyətinin qiymətləndirilməsi və onun təkmilləşdirilməsi imkanlarının tədqiqi;
- daxili bitkiçilik məhsulları bazarının qorunması mexanizminin təkmilləşdirilməsi, tarif və qeyri-tarif vasitələrinin səmərəli əlaqələndirilməsi ilə bağlı təkliflərin hazırlanması;
- bitkiçilikdə risklərin azaldılması və davamlı inkişaf vasitələrinin formalaşdırılması imkanlarının öyrənilməsi;
- bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi nəticəsində kənd təsərrüfatının kompleks inkişaf etdirilməsi üçün təklif və tövsiyələrin verilməsi.

**Tədqiqat obyekti** – Azərbaycan Respublikasında bitkiçilik məhsullarının istehsalı, emalı və ixracıdır.

**Tədqiqatın predmeti** – bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması problemlərinin həlli imkanları və onları şərtləndirən amillərdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasını ölkəmizin və xarici ölkələrin iqtisadçı alimlərinin bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması problemlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikasının ali qanunvericilik və icra orqanlarının qanun, qərar, fərman, sərəncam və normativ sənədləri, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" və s. təşkil edir.

Tədqiqat prosesində müqayisəli təhlil, monoqrafik, iqtisadi-statistik, balans, statistik müşahidə, məqsədli proqram, riyazi model və digər üsullar tətbiq olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyi (Xüsusən də Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sisteminin (FTMMS) məlumatları), həmçinin İqtisadiyyat, Maliyyə, Ekologiyavə Təbii Sərvətlər və digər nazirliklərin, Əmlak Məsələləri Dövlət Komitəsinin, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin, istehsal, emal, xidmət, müəssisə və təşkilatlarının, müvafiq icra qurumlarının məlumatlarından, eləcə də Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinə daxil olan elmi-tədqiqat institutlarının (Kənd Təsərrüfatının İqtisadiyyatı ETİ, Əkinçilik ETİ,

Tərəvəzçilik ETİ, Bitki Mühafizə və Texniki Bitkilər ETİ, Meyvəçilik və Çayçılıq ETİ, Üzümçülük və Şərabçılıq ETİ) araşdırmalarından, Azərbaycan Respublikasında istehsal olunan mallar və onların istehsalçıları barədə məlumatları əks etdirən www. azexport.az internet portalının məlumatlarından, beynəlxalq və yerli təşkilatların hesabatlarından, xüsusi müayinə materiallarından istifadə olunmuşdur.

**Elmi yeniliklər**. Təqdim edilən dissertasiya işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- müqayisəli üstünlüklərin və rəqabət üstünlüyünün qiymətləndirilməsi ilə bağlı nəzəri baxışlar təhlil edilmiş və müvafiq ümumiləşdirmələr aparılmışdır;
- bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyi və ərzaq təhlükəsizliyi paradiqmalarının uzlaşdırılmasının formulası verilmişdir;
- müasir şəraitdə bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinə təsir edən amillər sistemləşdirilmiş və onların elmi təsnifatı verilmişdir;
- qloballaşma mexanizminin tələbləri nəzərə alınmaqla bitkiçilik təsərrüfatlarının rəqabətqabiliyyətliliyini müəyyən edən əsas şərtlər göstərilmişdir;
- beynəlxalq təcrübədə istifadə olunan üsullardan istifadə etməklə bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirməsi aparılmışdır;
- ölkədə bitkiçilik məhsullarının istehsalı və rəqabətqabiliyyətliliyi üzrə müasir vəziyyət kompleks şəkildə qiymətləndirilmiş, həyata keçirilən aqrar siyasətin bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinə təsirinin əsas istiqamətləri göstərilmişdir;
- sahənin inkişaf perspektivləri nəzərə alınmaqla bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılmasının əsas istiqamətləri müəyyən edilmişdir;
- ixracyönümlü bitkiçilik məhsullarının istehsalının artırılmasının prioritet istiqamətləri aşkarlanmışdır;
- bitkiçilik məhsullarının daxili bazarda rəqabətqabiliyyətliliyinin təmin edilməsi, tarif və qeyri-tarif vasitələrinin səmərəli əlaqələndirilməsi ilə bağlı mövcud vəziyyət qiymətləndirilərək, müvafiq mexanizminin təkmilləşdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış tövsiyə hazırlanmışdır;
- bitkiçilik məhsullarının xarici bazarda rəqabətqabiliyyətliliyini yüksəltmək üçün həyata keçirilməli olan gələcək islahat tədbirləri



ilə bağlı təkliflər verilmişdir;
- bitkiçilik təsərrüfatlarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin şərti kimi risklərin azaldılması və davamlı inkişaf vasitələrinin formalaşdırılması ilə bağlı təkliflər hazırlanmışdır;
- bitkiçilik məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi üçün kompleks tədbirlər işlənmiş və onların reallaşdırılmasına yönəlmiş tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** İşdə xülasə edilən müddəalar və təcrübi tövsiyələr bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılmasını şərtləndirən və ona əngəl törədən amillərin təsirini qiymətləndirmək və iqtisadi tənzimləmə effektindən istifadə etməklə bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması problemlərinin həllini əhəmiyyətli dərəcədə sürətləndirmək imkanına malikdir. Təcrübi tövsiyələr və perspektiv parametrlər bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması məsələlərinin həllində istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası.** Tədqiqat dövründə dissertasiya işinin mövzusu Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmuşdur və AMEA Rəyasət Heyəti Nəzdində İqtisadiyyat üzrə Əlaqələndirmə Şurasında təsdiqlənmişdir (14 aprel 2012-ci il, protokol №2). Aktual problem kimi daimi fəaliyyət göstərən elmi seminarlarda və "Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində", "Aqrar iqtisadiyyatın aktual problemləri", "Gənc alimlərin kənd təsərrüfatında rolu: problemlər və imkanlar", "Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya", "Azərbaycanda torpaq islahatı – 20: nailiyyətlər və perspektivlər", "Azərbaycanın qeyri-neft sektorunda innovasiya fəaliyyətinin genişləndirilməsi", Türkiyə Respublikasının Ankara şəhərində keçirilən "Bağımsızlıklarının 25. Yılında Türk Cumhuriyetleri" mövzularındakı beynəlxalq elmi-praktik konfranslarda məruzə olunmuşdur. Bununla yanaşı, Koreya Kənd İqtisadiyyatı İnstitutunun 2015-ci ilin yanvar ayında Seul şəhərində təşkil etdiyi seminarda məruzə edilmişdir. Doktorant elmi işi ilə bağlı 2015-ci ilin oktyabr ayından 2016-cı ilin fevral ayınadək İngiltərənin Nyukasl (Newcastle) Universitetində tədqiqat aparmışdır.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Əsas nəzəri müddəalar və əldə edilmiş nəticələr 2011-2017-ci illərdə beynəlxalq və respublika səviyyələrində keçirilmiş simpozium, konfrans və seminarlarda müzakirə edilmişdir. Tədqiqatın əsas müddəa və nəticələri İqtisadi

İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (24 oktyabr 2016-cı il tarixli 138/001 №-li arayış), Kürdəmir Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi (27 yanvar 2016-cı il tarixli 07 №-li arayış) və İsmayıllı rayonu Qalacıq Bələdiyyəsi (19 fevral 2016-cı il tarixli 05 №-li arayış) tərəfindən istifadə üçün qəbul edilmişdir. Həmçinin işdə irəli sürülən təkliflər Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fermer təsərrüfatlarının monitorinqi və ixtisaslaşma tədqiqatı məqsədilə həyata keçirdiyi sorğu və onun nəticələrinin təhlili zamanı istifadə olunmuşdur (07 aprel 2017-ci il, N07/10-08-614).

Dissertasiya mövzusu üzrə müəllifin ümumi həcmi 45.6 çap vərəqi olan 47 elmi əsəri (məqalə, tezis və monoqrafiya) çap olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, beş fəsil, nəticə, istifadə edilmiş 305 adda ədəbiyyat siyahısından ibarətdir. İşdə 8 sxem, 59 mətndaxili cədvəl və 35 şəkil vardır. İşin ümumi həcmi 339 səhifədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri-metodoloji əsasları, məlumat mənbələri, elmi yeniliyi, təcrübi əhəmiyyəti, nəticələrin sınaqdan keçirilməsi və istifadə edilməsi və s. öz əksini tapmışdır.

**Dissertasiya işinin "Bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin nəzəri və metodoloji əsasları" adlanan** birinci fəslində rəqabətqabiliyyətliliyin iqtisadi mahiyyəti və strukturu, bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin meyarları və formalaşması xüsusiyyətləri, bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsinə metodiki yanaşmalar əks olunmuşdur.

Bu fəsildə qeyd edilir ki, iqtisadi ədəbiyyatlarda əksini tapan izahlara görə rəqabətqabiliyyətlilik – məhsulun və ya məhsul istehsalçısının bu və ya digər bazarda uzun müddət qalmaq və ya rəqabət apara bilmək qabiliyyətidir. Məhsul və məhsul istehsalçısı azad rəqabət şəraitində rəqabətqabiliyyətli ola bilər. Yəni məhsulun rəqabət qabiliyyəti – onun azad rəqabət şəraitində bazarda reallaşa bilmək qabiliyyətidir. Rəqabətqabiliyyətli məhsullar analoji əmtəələrlə müqayisədə daha yüksək xüsusiyyətlərə malik olan və nəticədə daha



tələbatlı məhsullardır. Məhsul istehsalçısının rəqabət qabiliyyəti isə məhsul ilə yanaşı onun da azad rəqabət şəraitində bazarda uzun müddət tab gətirə bilməsi qabiliyyətidir.

Doğrudur, bəzi müəlliflər rəqabətqabiliyyətliliyin iqtisadi nəzəriyyədə tam izahının olmadığını qeyd etmişlər. Bununla yanaşı, iqtisadi ədəbiyyatlarda rəqabətqabiliyyətlilik ən geniş mənada yarış müstəvisində uduş imkanı kimi qeyd olunur. Həmçinin ədəbiyyatlarda məhsulun rəqabətqabiliyyətliliyi onun alıcını təmin etmə səviyyəsindən asılı olduğu vurğulanır. Rəqabətqabiliyyətli məhsulun daha ucuz satış kanalları vasitəsilə asan və tez satıldığı önə çəkilir.

İşdə Adam Smit, David Rikardo, Maykl Porterin və digər məşhur alimlərin bu sahədəki əsərləri öyrənilmiş və təhlil edilmişdir. Göstərilir ki, bu sahədə mütləq üstünlükləri 18-ci əsrin, müqayisəli üstünlükləri 19-cu əsrin, rəqabət üstünlüyünü isə 20-ci əsrin əsas nəzəriyyələri hesab etmək olar. Maykl Porterin rəqabət üstünlüyü nəzəriyyəsinə isə artıq müəyyən modifikasiya təklifləri var. Məsələn, D.S.Ço Koreya təcrübəsini nəzərə alaraq Porterin romb modelini modifikasiya etmişdir. 21-ci əsrin yeni tələbləri isə bu sahədəki dəyişiklikləri qaçılmaz edir. Artıq heç bir taksisi olmayan UBER dünyanın ən böyük taksi xidməti göstərən şirkətidir. Bu şirkət yüzlərlə taksiyə malik olan şirkətləri rəqabətdə udur. Yəni 21-ci əsrin tələbləri də dəyişir.

Tədqiqatda bu sahədə Azərbaycan alimlərinin fikirlərinə və araşdırmalarına geniş yer verilmişdir. Onların müqayisəli üstünlüklər və rəqabət üstünlükləri barədə fikirlərini ümumiləşdirərək qeyd edə bilərik ki, ölkənin müqayisəli üstünlükləri təbiət tərəfindən bəxş edilmişdir. Bu üstünlüklər statik xarakter daşıyır, lakin onlar əbədi deyildir və onların təkrar istehsalı demək olar ki, qeyri-mümkündür. Rəqabət üstünlükləri isə dinamik olaraq innovasiyalarla, insan kapitalının və intellektin inkişafı ilə bağlıdır. Başqa sözlə, bu üstünlüklər təbiətinə görə hüdudsuz deyildir. Müqayisəli və rəqabət üstünlükləri bir-birinə qarşı qoyulmamalı və bir-birindən dəqiq surətdə fərqləndirilməlidir. Həmçinin müqayisəli və rəqabət üstünlükləri bir-birini tamamlamalıdır. Belə ki, müqayisəli və rəqabət üstünlüklərinin eyni bir ölkəyə mənsub olması onun qlobal iqtisadi məkanda rəqabət qabiliyyətini yüksəldir.

Respublikamızda aparılan araşdırmalarda göstərilir ki, hər hansı məhsulun rəqabətqabiliyyətliliyi onun digər məhsulla (əmtəə ilə) müqayisəsi nəticəsində müəyyən edilə bilər. Buna görə də o, nisbi göstərici

hesab olunur və bir əmtəənin digərindən fərqini əks etdirir. Göstərilmişdir ki, Azərbaycan iqtisadçılarının əsərlərində kənd təsərrüfatının rəqabət qabiliyyəti deyildikdə iqtisadiyyatın, siyasətin, cəmiyyətin və s. müəyyən inkişafı şəraitində kənd təsərrüfatı məhsulları istehsalçılarının daxili və xarici bazarda vəziyyəti nəzərdə tutulur. Bir qayda olaraq sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədi əhalinin həyat səviyyəsini və keyfiyyətini artırmaqdır.

Ümumilikdə isə, iqtisadçıların araşdırmalarını ümumiləşdirdikdə rəqabətqabiliyyətliliyin sxemdə qeyd olunan səviyyələrini fərqləndirmək olar.




Sxem 1. Rəqabətqabiliyyətliliyin səviyyələri

Bununla yanaşı, bəzi tədqiqatçılar regional rəqabətqabiliyyətliliyi (rayon, şəhər və s.), ölkələr blokunun rəqabətqabiliyyətliliyini (Avropa İttifaqı və s.) və ya beynəlxalq rəqabətqabiliyyətliliyi araşdırma mövzusu kimi seçirlər.

Qeyd edək ki, üst səviyyənin rəqabətqabiliyyətliliyi birbaşa alt səviyyənin rəqabət qabiliyyətindən müəyyənləşir. Belə ki, məhsulu (və ya məhsulları) rəqabətqabiliyyətli olmayan təsərrüfatın rəqabətqabiliyyətliliyindən danışmaq qeyri-mümkündür. Sahənin rəqabətqabiliyyətliliyi də sahədəki təsərrüfatların rəqabətqabiliyyətliliyindən birbaşa asılıdır. Tədqiqatlarda göstərilir ki, rəqabətqabiliyyətlilik səviyyələri müstəqil surətdə, bir-birindən təcrid olunmuş şəkildə fəaliyyət göstərmir, əksinə, bir səviyyə digərinə çox ciddi təsir göstərir. Bu təsir həm stimullaşdırıcı, həm də ləngidici ola bilər. Təsirin xarakteri səviyyənin özünün nisbi vəziyyəti ilə xarakterizə olunur.



Məhsulun rəqabətqabiliyyətliliyi bazarda onun müvəffəqiyyətini təmin edən istehlak və dəyər xarakteristikaları əsasında gerçəkləşir. Rəqabətqabiliyyətliliyi təmin edən ən əsas amil məhsul və xidmətlərin qiymətinin, eləcə də keyfiyyətinin istehlakçıların tələbinə, həmçinin istəklərinə uyğun olmasıdır. Məhsulun rəqabətqabiliyyətliliyi texniki, iqtisadi, normativ və estetik parametrlərlə yanaşı, həm də kommersiya və digər realizasiya şərtlərinə görə istehlakçının tələblərinə uyğun gəlməsindən asılıdır.

Amma məhsulun rəqabət qabiliyyətinin sahənin rəqabət qabiliyyətinə təsir göstərməsinə dair fikirlə razılaşmayanlar da var. Bəzi ədəbiyyatlarda iddia olunur ki, əksər hallarda bunun əksi doğru olur. Yəni rəqabətqabiliyyətli sahə rəqabətqabiliyyətli məhsul buraxır. Buna baxmayaraq, rəqabətqabiliyyətli və tələbatlı məhsulların ayrıca növünün olması alıcıların bütün sahəyə qarşı loyallığını artırır. Belə məhsulların bariz nümunəsi kimi fransız şərabını və ya İsveçrə pendirlərini qeyd etmək olar. Bu məhsulların bütün dünyada tələbatlı olmasından əlavə onun istehsalı məhsulun hazırlandığı xammala (üzüm, süd və s.) tələbatı stimullaşdırır.

Audrone Balkyte və Manuela Tvaronaviciene isə bu sahədə aparılan araşdırmaları ümumiləşdirərək vurğulayırlar ki, rəqabət qabiliyyəti anlayışı təsərrüfatlara və məhsullara ən uyğun şəkildə tətbiq edilir. Məhsulun rəqabətqabiliyyətli olması ümumilikdə rəqabətqabiliyyətliliyin daha yüksək səviyyələrinin (müəssisə, sahə və ölkə) də əsasını təşkil edir. Bu sahədə aparılan araşdırmaların oxşar cəhətlərindən biri odur ki, tədqiqatçılar rəqabətqabiliyyətli məhsul istehsalını daxili və xarici bazarda davamlı şəkildə mənfəət əldə edə bilmək qabiliyyətinə malik olmaq kimi təqdim edirlər.

Təsərrüfat subyektlərinin rəqabətqabiliyyətliliyinə gəldikdə isə bu müvafiq təsərrüfat subyektinin yerli və xarici müəssisələrə nisbətən üstünlüyüdür. Bu, əsasən, təsərrüfat subyektinin iqtisadi imkanları və onların səmərəliliyindən, idarəetmənin təşkili səviyyəsindən, innovasiya fəaliyyətindən, satış potensialından, təsərrüfat subyektinin imicindən, bazar strategiyasından və s. amillərin mövcudluğundan asılıdır.

T.Domazetaya görə, rəqabətqabiliyyətlilik konsepsiyası şirkət səviyyəsində sadədir, şirkətlərin ardıcıl olaraq qiyməti və keyfiyyəti baxımından açıq bazarın tələblərinə cavab verən məhsulların istehsal etmə qabiliyyəti müəyyən edilir.

Sahənin rəqabətqabiliyyətliliyi həmin sektorda fəaliyyət göstərən təsərrüfatların rəqabətli olması ilə xarakterizə olunur. Bu cür təsər-

rüfatlar birlikdə qlobal məkanda həmin sahənin rəqabətqabiliyyətliliyini təmin edir. Qlobal məkanda sahənin rəqabətqabiliyyətliliyi artıq hər hansı təsərrüfat subyekti ilə deyil, bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin məcmusunun dünya bazarındakı çəkisi və rəqiblərdən üstünlük dərəcəsi ilə ölçülür. Burada onu qeyd edək ki, elə sənaye sahəsi var ki, orada sahənin rəqabətqabiliyyətliliyini təmin etmək digər sahələrlə müqayisədə asan olur. Belə ki, bu sahəni əsasən 3 və ya 4 iri şirkət təmsil edir. Məsələn, buna nümunə kimi Almaniyanın maşınqayırma sənayesini göstərə bilərik. Dünya bazarında markasından asılı olmayaraq Almaniya avtomobilləri çox zaman rəqib ölkələrin müvafiq sənaye sahələrini üstələyir. Amma kənd təsərrüfatı sektorunda vəziyyət bundan tam fərqlidir. Məsələn, Azərbaycanda yüz minlərlə kənd təsərrüfatı məhsulları istehsalçısı var və onlar yüzlərlə müxtəlif məhsul istehsal edirlər. Bunun üçün də onların hamısının rəqabətqabiliyyətli olması mümkün deyil. Eyni zamanda Azərbaycanda kənd təsərrüfatı çoxsahəli olduğu üçün orada istehsal olunan bütün məhsulların da rəqabətqabiliyyətliliyini təmin etmək imkan xaricindədir. Məhz buna görə ixtisaslaşmanın dərinləşdiyi sahələrdə istehsal edilən məhsulların rəqabətqabiliyyətli olma ehtimalı böyükdür. Azərbaycan reallığında isə biz rəqabətqabiliyyətlilik anlayışını təsərrüfatlara və məhsullara ən uyğun şəkildə tətbiq edə bilərik. Təsərrüfat və məhsul səviyyəsində rəqabətqabiliyyətliliyə nail olunması isə aqrar sektorun rəqabətqabiliyyətliliyinin artmasına xidmət edəcək.

İqtisadiyyatın rəqabətqabiliyyətliliyi isə yuxarıda qeyd etdiyimiz hər 3 səviyyənin məcmusu ilə ayırd edilir. Ancaq milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi hər 3 səviyyənin xüsusiyyətlərini özündə cəmləşdirməklə yanaşı, daha çox makroiqtisadi parametrlərlə xarakterizə olunur.

Bəzi iqtisadçılar (P.Kruqman və s.) rəqabətqabiliyyətlilik anlayışının ölkəyə tətbiq olunmasını doğru saymırlar. Məsələn, P. Kruqman ölkələrin və firmaların oxşar olmadıqlarını vurğulayır. Qeyd edir ki, şirkətlər rəqabətqabiliyyətli olmadıqları halda fəaliyyətlərini dayandırırlar. Ölkələr isə bunu edə bilmirlər. Digər tərəfdən ölkənin ictimai məhsulları ölkə daxilində satıldığı halda firmaların məhsulları həm də xaricdə satılır. Ona görə rəqabətqabiliyyətlilik anlayışı ölkəyə tətbiq olunanda siyasətçilər vəziyyət pisləşdikdə və ya başqa vergi siyasəti tətbiq etməyi planlaşdırdıqları zaman o siyasətçilər üçün arxasında gizləndikləri yeganə siyasi vasitəyə çevrilir.



P.Kruqman bunun bir ölkənin rəqabət qabiliyyətinin artmasının digər ölkənin rəqabət qabiliyyətinin azalması nəticəsində olmadığını vurğulamışdır: Məsələn, B ölkəsi A ölkəsindən yüksək keyfiyyətli idxaldan faydalana bilər, bu halda hər iki ölkə qalib olar.

Bu fəsildə vurğulanır ki, rəqabətqabiliyyətliliyin ölçülməsi bir neçə komponenti nəzərə almaqla həyata keçirilməlidir. Qərb tədqiqatçıları rəqabətqabiliyyətliliyi üzə çıxarmaq üçün bir sıra yanaşmalardan istifadə edirlər. Bu zaman daha çox Real məzənnə dərəcəsi (RER), Aşkarlanmış Müqayisəli Üstünlüklər (RCA), İxrac bazar payları (EMS), Xalis ixracat indeksi (NEI), Nisbi idxal üstünlüyü (RMA), Nisbi ixrac üstünlüyü (RXA) metodlarından istifadə olunur.

Azərbaycanda da kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyini müəyyənləşdirmək üçün müxtəlif tədqiqatlar aparılmışdır. Tədqiqatlarda ən çox istifadə olunan metodlar Daxili Resurs Xərci, Nominal Müdafiə Əmsalı, Effektiv Müdafiə Əmsalı, Aşkarlanmış Müqayisəli Üstünlüklər, Xalis İxrac Əmsalı və s. olmuşdur.

Qeyd edək ki, bitkiçilik məhsullarının beynəlxalq rəqabət qabiliyyətini müəyyənləşdirən iki əsas amil vardır. Belə ki, beynəlxalq bazarlarda rəqabətqabiliyyətlilik məhsulun qiymət və ya keyfiyyət rəqabətqabiliyyətliliyindən asılı olur.

Bizim tədqiqatımızda bitkiçilik məhsullarının beynəlxalq rəqabət qabiliyyətini müəyyənləşdirmək üçün bir neçə metoddan istifadə etmişik. Həmçinin tədqiqat qiymət və ya xərc rəqabətqabiliyyətliliyi üzərinə fokuslanmışdır.

**Dissertasiya işinin "Qloballaşma dövründə bitkiçilikdə rəqabət üstünlüklərinin formalaşması şəraiti və amilləri" adlanan** ikinci fəslində iqtisadi qloballaşma mexanizmlərinin bitkiçilik məhsullarının rəqabət mühitinə təsiri qiymətləndirilmiş, bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyi və ərzaq təhlükəsizliyi paradiqmaları uzlaşdırılmış, qloballaşma şəraitində bitkiçilik və ərzaq məhsullarının rəqabətqabiliyyətliliyinin formalaşmasının əsas amilləri göstərilmişdir. İkinci fəslin birinci paraqrafında göstərilir ki, hazırda Azərbaycanın bitkiçilik məhsulları əsasən Avrasiya İqtisadi Birliyinə (AİB) üzv ölkələrə (Rusiyaya) ixrac olunur. Bu iqtisadi birliklə yaxşı əlaqələr ölkəmiz üçün vacibdir. Amma Azərbaycanın ÜTT-yə üzvlük məsələsi daha aktualdır. Bu sahədə R.Hüseynovun ümumi bərabərlik (computable general equilibrium) və mikrosimulyasiya (microsimulation) modellərinə əsasən apardığı hesablamalara müraciət olunaraq, göstərilmişdir ki, Azərbaycanın ÜTT-yə inkişaf etməkdə

olan ölkə kimi üzvlüyü ÜDM-i 0.03 faiz artıracaqdır (inkişaf etmiş ölkə kimi isə 0.04 faiz). Bununla yanaşı, ölkənin idxal və ixrac əməliyyatları 0.87 və 0.43 faiz artması gözlənilir. Üzvlük ilkin mərhələdə kənd təsərrüfatı sektoruna mənfi təsir edəcəkdir. Belə ki, bu sektorun ümumi buraxılışı 0.7 faiz azalacaqdır. Səbəb isə bu sektora ayrılan birbaşa subsidiyaların azalması olacaqdır. Azərbaycan bu quruma inkişaf etməkdə olan ölkə statusunda qəbul olunarsa kənd təsərrüfatı məhsullarının idxalı 2.2%, ixrac isə 1.4% artacaqdır. İşdə göstərilmişdir ki, ÜTT-yə üzvlükdən kənd təsərrüfatı ilkin mərhələdə zərər çəksə də bir çox rəqabətqabiliyyətli bitkiçilik məhsullarının istehsalı ÜTT-yə üzvlükdən zərər çəkməyəcək. Əksinə, onların ixracı artacaqdır.

Bu fəsildəki bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyi və ərzaq təhlükəsizliyi paradiqmalarının uzlaşdırılması ilə bağlı ətraflı araşdırmada, Azərbaycan alimləri S.V.Salahovun, H.A.Xəlilovun, B.X.Ataşovun və digərlərin tədqiqatlarına müraciət edilmişdir.

Ərzaq təhlükəsizliyi hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün zəruri həcmdə, həmçinin sağlamlıq üçün təhlükəsiz olan ərzağa fiziki və iqtisadi cəhətdən əlyetərliliyinə təminat yaradılması deməkdir. Ölkənin ərzaq təhlükəsizliyi dedikdə istənilən vaxtda, əhalinin sağlam həyat tərzinə təminat verəcək səviyyədə, zəruri və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilmə nəzərdə tutulur.

Ərzaq təhlükəsizliyi o zaman təmin olunur ki, bütün insanların fəal və sağlam həyat sürmələri, eləcə də bütün vaxtlarda yeməyə olan tələbatlarını ödəmələri üçün sağlam, həmçinin qidalı ərzaq onlar üçün fiziki, sosial və iqtisadi baxımdan əlçatan olsun. FAO-nun verdiyi tərifə əsasən ərzaq təhlükəsizliyi özündə 4 mühüm elementi birləşdirir: ərzağın mövcudluğu, ərzağa çıxış, keyfiyyətli ərzaqdan istifadə və davamlı təminat.

Azərbaycanda ərzaq təhlükəsizliyini təmin etmək üçün 2001-ci ildə dövlət proqramı qəbul olunmuşdur. Daha sonra 2008-ci ildə isə “Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” qəbul olunmuş və icra edilmişdir.

Ümumilikdə isə proqramın əhatə etdiyi dövr ərzində ayrılan vəsaitin məbləği 914 milyon manatdan çox olmuşdur. Problemlərdən biri ondan ibarətdir ki, Azərbaycanda kənd təsərrüfatı istehsalının dinamik artımı daha çox ekstensiv faktorların hesabına təmin edilir ki, bu da ölkədə ərzaq istehsalının davamlılığının təmin edilməsi baxımından ciddi problem kimi qəbul edilə bilər.



Təhlillərimiz göstərir ki, 2000-2015-ci illər ərzində bitkiçiliyin sahə quruluşunda baş vermiş dəyişiklikləri xammal-ərzaq yönümlü istehsaldan ərzaq yönümlü məhsullar istehsalına keçid kimi səciyyələndirmək olar. Bu struktur bitkiçilik sahəsinin ərzaq məhsulları ilə daxili tələbatın daha dolğun ödənilməsini şərtləndirsə də həmin məhsulların istehsalının artırılmasının ekstensiv yollarla həyata keçirilməsi bütövlükdə bitkiçiliyin səmərəliliyinin aşağı düşməsi ilə nəticələnmişdir. Həmçinin son 10 bitkiçilik məhsullar üzrə özünütəminetmə səviyyəsi dənlilər üzrə 57%-dən 63.8%-ə, tərəvəz üzrə 98.8-dən 105.4-ə yüksəlmişdir. Kartof, üzüm, meyvə və giləmeyvə üzrə cüzi azalma müşahidə olunmuşdur.




Şəkil 1. Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz
Mənbə: DSK-nın (www.stat.gov.az) məlumatlarına əsasən hazırlanıb.

Hazırda ölkədə əsas ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına tam təminatı mümkün olmamışdır. Əslində respublikamızda ərzaq təhlükəsizliyi bütün ərzaq məhsullarına tələbin tam yerli istehsalla ödənilməsi kimi də qəbul olunmur. Çünki yalnız yerli istehsalla ərzaq təminatı kimi qəbul edilən ərzaq təhlükəsizliyi tələb edir ki, idxal mümkün qədər məhdudlaşdırılsın və ya tam qadağan edilsin. Bu isə xarici ticarətin liberallaşdığı bir şəraitdə mümkün

olmayan və həm də yanlış bir yanaşmadır. Azərbaycanda isə xarici ticarətin liberallaşması istiqamətində ciddi addımlar atılır. Buna paralel olaraq ərzaq təhlükəsizliyi ilə bağlı dünya ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitliyin Azərbaycanda ərzaq məhsullarının qiymətinə kəskin təsir göstərməməsi üçün mexanizmlər işlənilməlidir.

Bu sahədə son illər aparılan tədqiqatlardan belə bir qənaət formalaşır ki, ərzaq təhlükəsizliyi və rəqabət üstünlüyünə malik ixracyönümlü sahələrin inkişafı arasında ortaq məxrəci tapmaq asan məsələ deyil. Əgər ərzaq təhlükəsizliyi milli səviyyədə bütün ərzaq məhsulları ilə özünütəminatı əsas götürürsə, rəqabət üstünlüyü nəzəriyyəsi ölkənin yalnız rəqabət üstünlüyünə malik olduğu sahələrin inkişafını zəruri hesab edir. Məsələn, tədqiqatlarda vurğulanır ki, taxıl istehsalı Azərbaycanın ərzaq təhlükəsizliyi baxımından vacib element sayılsa da, rəqabət üstünlüyünə malik deyil. Bu halda rəqabət üstünlüyü və ərzaq təhlükəsizliyi arasında "ortaq məxrəc"in tapılması vacibdir. Belə "ortaq məxrəc" isə yalnız iqtisadi deyil, dövlətçilik baxımından əhəmiyyət kəsb edən digər aspektləri də nəzərə almalıdır.

Tədqiqatçı bu fəsildə bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinə təsir edən amilləri ümumi şəkildə aşağıdakı kimi qruplaşdırır:

1. Mənfi istiqamətdə təsir göstərən amillər:

- məhsuldarlığın aşağı olması ilə bağlı, məhsul vahidinə xərclərin səviyyəsinin yüksək olması;
- logistika və infrastruktur təminatının zəif olması ilə əlaqədar istehsal olunmuş məhsulun keyfiyyətinin aşağı düşməsi;
- bazarlara (xarici bazarlara) çıxış üçün inzibati maneələr və qeyri-formal ödənişlər;
- əmək məhsuldarlığının aşağı olması;
- innovasiyaların və yeni texnologiyaların tətbiqi səviyyəsinin aşağı olması və s.

2. Müsbət istiqamətdə təsir göstərən amillər:

- istehsal prosesində sintetik maddələrdən az istifadə ilə bağlı məhsulun ekoloji təmizliyinin yüksək olması;
- yerli təbii-iqlim şəraitinin təmin etdiyi yüksək keyfiyyət göstəriciləri;
- ucuz işçi qüvvəsi sayəsində istehsal xərclərinin aşağı səviyyədə olması və s.

Bu fəslin sonuncu paraqrafında isə dünya təcrübəsi öyrənilmişdir. Müsbət təcrübə kimi Fransa, Hollandiya, İsrail, Braziliya, Latviya, Estoniya, Polşa, Norveç, Rusiya və Koreyanın aqrar sektorunun ümumi vəziyyəti, bu sahədə rəqabətqabiliyyətli məhsul istehsalı ilə bağlı həyata keçirilən tədbirlər araşdırılmışdır. İnkişaf etmiş ölkələrin rəqabətqabiliyyətli məhsul



istehsalı ilə bağlı müsbət təcrübələrinin Azərbaycanda tətbiq imkanları öyrənilmişdir. Göstərilib ki, hazırda ÜDM-də kənd təsərrüfatının payı Sierra Leone (61.4%), Çad (50.1%) kimi zəif inkişaf etmiş ölkələrdə çox yüksək, İngiltərə (0.6%), Fransa (1.5%), ABŞ (1.4%) kimi gəlir səviyyəsi yüksək olan ölkələrdə isə azdır. Kənd təsərrüfatının ÜDM payının az olmasına baxmayaraq İngiltərə, Fransa, ABŞ bu sektorda rəqabətqabiliyyətli məhsul istehsalına nail olmuşlar. İşdə müəllifin İngiltərədə və Cənubi Koreyada apardığı araşdırmalara da xüsusi yer verilmişdir. İngiltərənin orqanik kənd təsərrüfatı məhsulları istehsalı sahəsindəki, eləcə də Koreya Respublikasının anbar-tədarük və top-dansatış bazar infrastrukturunun inkişafı sahəsindəki təcrübəsindən Azərbaycanda istifadə olunması təklif edilmişdir.

ABŞ başda olmaqla dünyanın 28 ölkəsində rəqabətqabiliyyətli məhsul istehsalı üçün 179,7 milyon hektar sahədə geni dəyişdirilmiş toxumlardan (GDO) istifadə etməklə məhsul yetişdirilmişdir. Qeyd edilmişdir ki, dünya üzrə GDO-lu əkinlərin 97 faizindən çoxu 10 ölkənin payına düşür. Bu sahədə liderlik isə ABŞ-a aiddir və bu ölkədə qarğıdalının 92 faizi, soyanın 94 faizi, pambığın 94 faizi GDO-ludur.

**Dissertasiya işinin "Bitkiçilik məhsulları istehsalının sistem-struktur təhlili və rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi" adlanan** üçüncü fəslində isə bitkiçilik məhsullarının daxili bazarda rəqabətqabiliyyətliliyinin dəyişilməsində əsas meyillər müəyyənləşdirilmiş, bitkiçilik məhsullarının xarici bazarda rəqabətqabiliyyətliliyinin mövcud vəziyyəti qiymətləndirilmişdir.

Bu fəsildə müəllif qeyd edir ki, son illər ölkədə kənd təsərrüfatının ümumi məhsul istehsalında artım var. Bununla yanaşı, kənd təsərrüfatının ümumi məhsulunun strukturuna məhsullar üzrə nəzər salanda aydın olur ki, 1990-cı ildən bu günə kimi bitkiçiliyin payı ümumən azalmışdır.




Şəkil 2. Kənd təsərrüfatının ümumi məhsulunun strukturu, faktiki qiymətlərlə yekuna görə faizlə

Mənbə: DSK-nın (www.stat.gov.az) məlumatlarına əsasən hazırlanmışdır.

Belə ki, 1990-cı ildə kənd təsərrüfatının ümumi məhsulunun strukturunda bitkiçilik məhsullarının payı 63.7 faiz təşkil edirdisə, 2016-cı ildə bu vəziyyət heyvandarlığın xeyrinə dəyişildi. Hazırda kənd təsərrüfatının ümumi məhsulunun strukturunda bitkiçilik məhsullarının payı 45.8 faizdir.

Amma 1990-cı illə müqayisədə 2016-cı ildə bir çox bitkiçilik məhsullarının istehsalında əhəmiyyətli artım meyilləri müşahidə olunmuşdur. Belə ki, bu müddətdə dənli bitkilərin istehsalı 2,2 dəfə, kartof istehsalı 4,9 dəfə, tərəvəz istehsalı 48 faiz, bostan bitkiləri 6,9 dəfə, meyvə və giləmeyvə istehsalı 2,4 dəfə artmışdır.

Cədvəl 1.

Azərbaycan Respublikasında bitkiçilik məhsulları istehsalı (min ton)

| İllər | 1985 | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2016/ 2015 % | 2016/ 1990 % |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər cəmi | 1297,9 | 1413,6 | 921,4 | 1540,2 | 2126,7 | 2000,5 | 2999,4 | 3065,1 | 102,2 | 2.2 dəfə |
| Kartof | 219,7 | 185,2 | 155,5 | 469,0 | 1083,1 | 953,7 | 839,8 | 902,4 | 107,5 | 4.9 dəfə |
| Tərəvəz | 872,2 | 856,2 | 424,1 | 780,8 | 1127,3 | 1 189.5 | 1275,3 | 1270,6 | 99,6 | 148,4 |
| Bostan məhsulları | 48,6 | 67,5 | 41,9 | 261,0 | 363,8 | 433,6 | 484,5 | 464,8 | 95,9 | 6.9 dəfə |
| Meyvə | 346,4 | 367,4 | 324,4 | 477,0 | 625,7 | 729,5 | 888,4 | 882,8 | 99,4 | 2.4 dəfə |
| Üzüm | 1789,6 | 1196,4 | 308,7 | 76,9 | 79,7 | 129,5 | 157,1 | 136,5 | 86,9 | 11,4 |
| Şəkər çuğunduru | – | – | 28,1 | 46,7 | 36,6 | 251,9 | 184,3 | 312,6 | 169,6 | – |
| Pambıq | 787,8 | 542,9 | 274,1 | 91,5 | 196,6 | 38,2 | 35,2 | 89,4 | 2.5 dəfə | 16,5 |
| Tütün | 60,0 | 52,9 | 11,7 | 17,3 | 7,1 | 3,2 | 3,5 | 3,6 | 102,9 | 14.7 dəfə azalıb |
| Dən üçün günəbaxan | – | 0,6 | 0,7 | 3,7 | 16,1 | 15,5 | 18,4 | 16,6 | 90,5 | 27.6 dəfə |
| Çay yarpağı | 31,7 | 30,7 | 9,41 | 1,08 | 0,73 | 0,54 | 0,58 | 1,02 | 175,9 | 30 dəfə azalıb |

Mənbə: Cədvəl DSK-nın məlumatlarına əsasən tərtib edilmişdir.

Ölkədə kənd təsərrüfatının ümumi məhsul istehsalında artım olsa da, potensialı tam reallaşdırmaqla daha böyük uğurlar əldə etmək mümkündür. Belə ki, aqrar sektorda istehsal həcmini artırmaqla



yanaşı, bu sahədə yüksək məhsuldarlığa və səmərəliliyə, qabaqcıl texnologiyaların tətbiqinə, emal müəssisələri şəbəkəsinin genişləndirilməsinə, ən əsası isə yerli məhsullarımızın rəqabət qabiliyyətinin artırılmasına nail olmaq lazımdır. İnnovasiya texnologiyalarından düzgün istifadə etməklə ölkəmiz daxili ərzaq bazarının böyük hissəsini öz hesabına formalaşdıra bilər.

Taxıl istehsalının son illərdəki vəziyyətinin təhlili göstərir ki, taxıl istehsalında xeyli miqdarda artıma nail olunmasına baxmayaraq, bu əsasən ekstensiv yolla, yəni əkin sahələrinin genişləndirilməsi hesabına baş vermişdir. Qeyd edək ki, Azərbaycanda taxılçılığın tarixi ənənəsi var. 1909-1913-cü illərdə əsas bitkiçilik məhsulu olan taxıl üzrə Azərbaycanın dünya istehsalında payı onun ərazi üzrə payını 2 dəfədən çox qabaqlamış və əhali üzrə payı ilə eyni səviyyədə olmuşdur. Həmin illərdə Azərbaycan taxıl istehsalında dünya üzrə adambaşına ortaillik göstəricini (265 kq) qabaqlamışdı (277 kq). Adambaşına buğda istehsalının isə orta illik həcmi 86 kq, yəni dünya üzrə müvafiq göstəricidən 1,2 dəfə çox olmuşdur. 2016-cı ildə isə Azərbaycan adambaşına buğda istehsalı 189 kq olmuşdur və 2015-ci illə müqayisədə 8 faiz artmışdır.

Pambıqçılığın inkişafına gəldikdə isə göstərilir ki, 2005-ci ildə ölkədə pambıq istehsalı 196,6 min ton olsa da, 2015-ci ildə 18,7 min hektardan cəmi 35,2 min ton pambıq yığılmışdır. Lakin 2016-cı ildən etibarən pambıqçılığın inkişafı istiqamətində görülən əsaslı tədbirlər nəticəsində pambıq əkini sahəsi əvvəlki illə müqayisədə 2,7 dəfə artaraq 51,4 min hektara, pambıq istehsalı 2,5 dəfə artaraq 89,4 min tona çatdırılmışdır. Dövlət Proqramının icrası nəticəsində 2022-ci ildə xam pambıq istehsalının 500 min ton təşkil edəcəyihədəflənir. Buna paralel olaraq pambıq əkin sahələrinin 1/3-də pivot suvarma sistemlərinin tətbiqi planlaşdırılır. Pivot suvarma sistemləri tətbiq olunan sahələrdə isə məhsuldarlığın 35 sentnerə çatdırılacağı proqnozlaşdırılır. Bizim qənaətimizcə, pambıq istehsalının 500 min tona çatdırılması mərhələli şəkildə həyata keçirilməlidir(Şəkil 3).

Araşdırmamız göstərir ki, Azərbaycanda Avstraliya modelinin tətbiqi pambıqçılığın inkişafına ciddi təkan verə bilər. Çünki Avstraliyada fermerlər xam pambıq yox, mahlıc satırlar. Bu ölkədə fermer xam pambığı emal müəssisəsinə mahlıc alınması üçün verir. Daha sonra fermer mahlıcı emal müəssisəsindən götürərək satır. Emal müəssisəsi isə emal xərclərinin qarşılığı olaraq pambığın toxumunu özündə saxlayır. Bəzi illərdə çiyidin qiyməti




Şəkil 3. Pambıq istehsalının həcmi, min ton (2017-2021-ci illər üzrə proqnoz)

baha olduğu təqdirdə isə fermerlə emal müəssisləri arasında razılaşma şərtləri dəyişə bilir. Mahlıc fermerin özü tərəfindən satıldığı üçün istehsalçının gəliri artır və pambıq istehsalında maraqlı olur. İşdə göstərilmişdir ki, pambıq emalının dərinləşdirilməsi vacibdir. Bu baxımdan 2021-ci ilədək Mingəçevir Sənaye Parkının nəzdində 9 fabrikin – pambıq iplik, akril iplik, yun iplik, corab məhsulları, ayaqqabı istehsalı, toxuma, parça boyama, tikiş və tibbi kosmetika – inşa edilib istifadəyə verilməsi mühüm əhəmiyyət daşıyacaq. Bununla yanaşı, tədqiqatda pambıq yağının istehsalı istiqamətində də sərmayə qoyulmasının vacibliyi önə çəkilir və göstərilir ki, bu sahədə müvafiq tədbirlər görülərsə 2021-ci ildə 30-35 milyon ABŞ dolları məbləğində pambıq yağı ixrac etmək potensialı yaradacaqdır.

Onu da qeyd edək ki, pambıqla yanaşı digər bir texniki bitkinin–tütünün də istehsalının 2021-ci ildə 12 min tona çatdırılması proqnozlaşdırılır. Belə ki, Azərbaycan Respublikasına 2014-cü ildə 399,4, 2015-ci ildə 297,6, 2016-cı ildə 153 milyon ABŞ dolları dəyərində tütün və tütünün sənaye əvəzediciləri idxal edilib. Yəni 2014-cü ildə tütün və tütünün sənaye əvəzediciləri 97,7 %, 2015-ci ildə 96,5 % və 2016-cı ildə isə 95,9%-ni siqaret təşkil etmişdir. Tütün istehsalının artırılması bu sahədə idxalın əvəzlənməsinə və ixracın artmasına töhfə verə bilər.

İşdə əmtəəlik məhsul istehsalı səviyyəsinin artırılması məsələsinə də toxunulmuşdur. Göstərilmişdir ki, 2016-cı ilin rəqəmlərinin təhlilindən aydın olur ki, bitkiçilikdə əmtəəlik səviyyəsi yüksəlir və təsərrüfatların böyük hissəsi istehsal etdiyi məhsulu bazara çıxarır.



Belə ki, FTMMS məlumatına əsasən, taxılçılıqda 41,9 faiz, tərəvəzçilikdə (açıq sahə) 88,4 faiz, istixanada 99,7 faiz, kartofçuluqda 78,1 faiz, bostançılıqda 97,8 faiz təsərrüfatlar istehsal etdikləri məhsulu 75-100 faizi arasında olan hissəsini bazara çıxarır.

Cədvəl 2.

Təsərrüfatların bitkiçilik məhsulları üzrə bazaryönümlülüyü səviyyəsinə görə qruplaşdırılması (istehsal və satış natural ifadədə olmaqla)

| Qruplar / Məhsullar | Təsərrüfatların bazarda satdıqları məhsulun onların ümumi istehsalına nisbəti | | | | | |
|---|---|---|---|---|---|---|
| | 0 | 0-10 | 10.01-25 | 25.01-50 | 50.01-75 | 75.01-100 |
| Taxıl | 11.0 | 1.1 | 2.6 | 17.3 | 26.1 | 41.9 |
| Qarğıdalı | 2.0 | 0.0 | 0.1 | 5.7 | 14.8 | 77.5 |
| Digər dənlilər | 2.3 | 0.0 | 0.0 | 4.8 | 11.3 | 81.7 |
| Paxlalılar | 5.2 | 0.0 | 0.0 | 4.6 | 12.6 | 77.6 |
| Tərəvəz (açıq sahə) | 2.0 | 0.1 | 0.3 | 3.7 | 5.6 | 88.4 |
| Tərəvəz (örtülü sahə) | 0.1 | 0.0 | 0.0 | 0.0 | 0.1 | 99.7 |
| Kartof | 0.6 | 0.0 | 0.0 | 2.7 | 18.6 | 78.1 |
| Bostan | 0.3 | 0.0 | 0.0 | 1.0 | 1.0 | 97.8 |
| Meyvə | 0.2 | 0.0 | 0.0 | 0.2 | 3.2 | 96.5 |
| Üzüm | 0.0 | 0.0 | 0.0 | 0.0 | 2 | 98 |
| Pambıq | 0.0 | 0.0 | 0.0 | 0.0 | 0.0 | 100.0 |
| Çay | 0.0 | 0.0 | 0.0 | 0.0 | 0.0 | 100.0 |
| Tütün | 0.0 | 0.0 | 0.0 | 0.0 | 0.0 | 100.0 |
| Şəkər çuğunduru | 0.0 | 0.0 | 0.0 | 0.0 | 0.0 | 100.0 |
| Günəbaxan | 0.0 | 0.0 | 0.0 | 0.0 | 0.0 | 100.0 |

Mənbə: FTMMS-inməlumatına əsasən tərtib edilmişdir.

Qeyd edək ki, son illər yerli istehsalın artımına baxmayaraq daxili bazarın tələbatının bir hissəsi də idxal hesabına ödənilir. Belə ki, 2016-cı ildə bitkiçilik məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi buğda üzrə 47,1%, qarğıdalı üzrə 28,9%, paxlalılar üzrə 31,7%, kartof üzrə 18,1 %, meyvə və giləmeyvə üzrə 12,6%, üzüm üzrə 13,5%-dir. Qeyd edək ki, Azərbaycan faraş kartofu ixrac edir (2016-cı ildə 15,8, 2017-ci ilin 8 ayı ərzində isə 25,8 milyon dollarlıq kartof ixrac edilib), amma daha sonra kartof idxal olunur.

Tədqiqatda vurğulanır ki, ölkədə kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun dövlət dəstəyi hesabına inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsinə başlanılıb. Amma aparılan araşdırmalar göstərir ki, bitkiçilik məhsullarının əhali tərəfindən

satınalınma kanallarının strukturunda son illər supermarketlərin payı artsa da ənənəvi bazarlarında payı böyükdür. Belə ki, FAO-nun sifarişinə əsasən, 2015-ci ildə Azərbaycanda keçirilən sorğunun nəticələrinə görə, istehlakçılar 64,1% meyvəni, 62,6% kartofu, 60,9% tərəvəzi, 50,4% bostan məhsullarını, 31,5% quru meyvəni ənənəvi bazarlardan alırlar.

Kənd təsərrüfatı məhsullarının satış infrastrukturunun inkişaf etdirilməsi üçün ənənəvi "kolxoz bazarları"na keyfiyyət alternativi kimi "yaşıl market"lər şəbəkəsinin, "fermer mağazaları"nın yaradılması istiqamətində fəaliyyətlərin gücləndirilməsinə ehtiyac var. Ölkənin müxtəlif bölgələrində kənd təsərrüfatı məhsulları sahəsində ixtisaslaşmış topdansatış bazarlarının yaradılması xüsusilə aktualdır.

Bu fəsildə bitkiçilik məhsullarının xarici bazarda rəqabətqabiliyyətliliyinin mövcud vəziyyəti geniş araşdırılıb.

İşdə göstərilir ki, 2015-ci ildə Azərbaycandan 2,3 milyon ABŞ dolları dəyərində diri heyvanlar və heyvan mənşəli məhsullar (HS kodu 01-05), 335,9 milyon ABŞ dolları dəyərində bitki mənşəli məhsullar (HS kodu 06-14) ixrac edilmişdir. 2016-cı ildə isə bu rəqəmlər 4,2 milyon ABŞ dolları və 386,6 milyon ABŞ dolları təşkil etmişdir. 2015-ci ildə ixrac edilən bitki mənşəli məhsullar heyvan mənşəli məhsullardan 143 dəfə, 2016-cı ildə isə 92 dəfə çox olmuşdur.

Bitki mənşəli məhsulların əsas ixrac bazarı Rusiyadır. Belə ki, 2015-ci ildə ixrac olunan bitki mənşəli məhsulların 71,1 faizi, 2016-cı ildə isə 76,3 faizi Rusiyaya olmuşdur. Tədqiqat zamanı Azərbaycanda istehsal olunan və ixrac edilən bitkiçilik məhsulları ilə bağlı ayrı-ayrılıqda da təhlillər aparılmışdır. Məsələn, təhlillər göstərir ki, 2012-ci ildən davamlı olaraq Azərbaycandan pomidor ixracı artmışdır. Belə ki, 2012-ci ildə 19 milyon ABŞ dolları olan pomidor ixracı 2016-cı ildə hardasa 5 dəfə artaraq 94 milyon ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin 8 ayı ərzində qeyri-neft sektoru üzrə ixracda ilk yeri pomidor (tomat) tutmuşdur.

Aparılan tədqiqat göstərmişdir ki, Azərbaycan pomidoru da əsasən Rusiyaya ixrac edilir. Belə ki, 2015-ci ildə 99.9%-i, 2016-cı ildə isə 99.7% Rusiyaya ixrac edilmişdir. 2016-cı ildə Azərbaycan Mərakeş və Çindən sonra Rusiyaya pomidor ixrac edən ölkələrin siyahısında üçüncü yerdə qərarlaşdı. Yəni 2016-cı ildə Rusiyanın idxal etdiyi pomidorun 18.8%-i Azərbaycanın payına düşmüşdür. Maraqlıdır ki, Azərbaycandan ixrac edilən pomidorun 1 tonunun qiyməti 937 ABŞ dolları, Mərakeşdən 1304 ABŞ dolları və Çindən 1220 ABŞ dolları təşkil etmişdir.






Şəkil 4. Azərbaycan Respublikasından pomidor ixracı və qiymətinin dəyişmə meyli (HS kodu 070200).

Mənbə: Dövlət Statistika Komitəsi və Dövlət Gömrük Komitəsi

2017-ci ildə pomidor ixracı həm dəyər, həm də həcm baxımından artmışdır. Ümumiyyətlə, 2017-ci ilin 8 ayı ərzindəki qeyri-neft ixracının 13%-ni pomidor təşkil etmişdir. Pomidor ixracına aylar üzrə nəzər saldıqda isə aydın olur ki, əsas ixracat may və iyun aylarında reallaşdırılır. Belə ki, bu ilin may ayındakı qeyri-neft ixracının 31%-i, iyun ayının isə 23%-i pomidorun payına düşmüşdür.




Şəkil 5. 2017-ci ildə aylar üzrə pomidor ixrac

Mənbə: Dövlət Gömrük Komitəsi

Aylar üzrə ixracat məlumatları onu göstərir ki, pomidor ixracatında əsas paya istixanalar malikdir. Məlumat üçün bildirək ki, 2016-cı

ildə Azərbaycanın pomidor ixracının yalnız 14%-i 4-cü rübdə reallaşdırılmışdır. Həmçinin ixrac olunan pomidorun qiyməti də aylar üzrə dəyişmişdir. Belə ki, yanvar ayında 1 kq pomidor 1.12 ABŞ dollarına ixrac olunmuşdursa, avqust ayında bu məbləğ 0.82 ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, FAO-nun məlumatına əsasən pomidorun 1 hektar məhsuldarlığı Türkiyədə 38, Hollandiyada 480, Almaniyada 200, Fransada 190, Belarusda 31 ton olduğu halda respublikamızda 19 tondur. Dünya üzrə orta göstərici isə 35 tondur. Qeyd edilən ölkələr belə yüksək məhsuldarlığa istixanaların hesabına nail olmuşlar. Azərbaycanda isə pomidor istehsalının böyük hissəsi açıq sahədədir və burada məhsuldarlıq aşağıdır.

Ümumiyyətlə, pomidor ixracı ilə bağlı apardığımız araşdırma göstərir ki, Azərbaycanın bu məhsulu Rusiya bazarında rəqabətqabiliyyətlidir. Lakin pomidor ixracının ancaq Rusiya bazarından asılı olmasının təhlükələri də var. Belə ki, Rusiyanın hər hansı səbəbdən bu məhsulun öz ərazisinə idxalına məhdudiyyət qoyarsa Azərbaycanın pomidor ixracatçıları ciddi zərərə uğraya bilərlər. Onun üçün respublikada bu məhsulun emalının dərinləşdirilməsinə və ixracının şaxələndirilməsinə ehtiyac var.

Digər rəqabətqabiliyyətli ixrac məhsulumuz isə fındıqdır. 2016-cı ildə Azərbaycandan 104 milyon ABŞ dollarında çox fındıq ixrac olunmuşdur. 2017-ci ilin 8 ayı ərzində isə 38 milyon ABŞ dollarından çox fındıq ixrac olunmuşdur. Bu 2017-ci ilin 8 ayı ərzindəki qeyri-neft sektoru üzrə ixracatın 4%-nə bərabərdir. Amma bu ilin sonuna kimi fındıq ixracının artacağı da faktdır.




Şəkil 6. Azərbaycan Respublikasından fındıq ixracı və qiymətinin dəyişmə meyli (HS kodu 080222).

Mənbə: Dövlət Statistika Komitəsi və Dövlət Gömrük Komitəsi.



Qeyd edək ki, Rusiyaya fındıq ixrac edən ölkələrin siyahısında da ilk beşlikdə Azərbaycan var. Azərbaycanın fındıq ixracının 2015-ci ildə 20%-i, 2016-cı ildə isə 29,3%-i Rusiyanın payına düşmüşdür. Azərbaycan Rusiyaya 1 ton fındığı 2015-ci ildə 5352 ABŞ dollarına, 2016-cı ildə isə 6123 ABŞ dollarına ixrac etmişdir. 2016-cı ildə Çin Rusiyaya 1 ton fındığı 10612 ABŞ dollarına, Türkiyə 11563 ABŞ dollarına, Gürcüstan isə 5580 ABŞ dollarına ixrac etmişdir. Trademapın məlumatına görə 2016-cı ildə Rusiyanın fındıq idxalında Azərbaycanın payı 27 faiz olmuşdur. Azərbaycan Rusiya ilə yanaşı Almaniyaya, İtaliyaya və digər ölkələrə də fındıq ixrac edir. 2016-cı ildə fındıq ixracında İtaliyanın payı isə 38,3%, Almaniyanın payı 23.4%-dir.

İtaliyaya fındığın 1 tonu 7818 ABŞ dollarına, Almaniyaya 1 tonu 7421 ABŞ dollarına ixrac edilmişdir. Göründüyü kimi, Azərbaycan fındığı ən baha qiymətə İtaliyaya ixrac edilmişdir. Azərbaycandan ixrac edilən fındığın qiymətində isə 2015-ci ildən etibarən cüzi azalma müşahidə olunur.

Qeyd edək ki, Azərbaycan ixracında özünəməxsus yer tutan fındıqçılığın inkişafı ilə bağlı son illər konkret addımlar atılır. Dünyanın müxtəlif ölkələri ilə müqayisədə Azərbaycanda fındığın məhsuldarlığı qənaətbəxşdir. Ən böyük istehsalçı olan Türkiyədə orta məhsuldarlıq 13 sentner olduğu halda Azərbaycanda da bu 12.6 sentner təşkil edir. Şübhəsiz ki, qarşıdakı illərdə də yeni salınan fındıq bağlarında daha yüksək məhsuldarlıq olacaqdır və Azərbaycanın fındıq ixracının 2 dəfədən çox artmasına imkan yaranacaq. Məlumat üçün bildirək ki, dünya miqyasında fındıq ixracında Azərbaycan ilk beşlikdə qərarlaşıb. Qlobal fındıq ixracının 91%-i beş ölkənin payına düşür. Belə ki, dünya üzrə fındıq ixracında 61%-i Türkiyənin, 12%-i İtaliyanın, 9%-i Gürcüstanın, 5%-i Azərbaycanın və 4%-i Çilinin payına düşür. Yerdə qalan ölkələrin isə 9%-lik payı var. Həmçinin Trademapın məlumatına görə, 2016-cı ildə dünya üzrə xurma ixracında dəyər baxımından Azərbaycanın payı 13% olmuşdur və ilk üçlükdə yer almışdır.

Xarici bazarlarda rəqabətqabiliyyətli olan xurmanın ixracı ilə bağlı məlumatlar aşağıdakı şəkildə yer almışdır.

Qeyd edək ki, Rusiyaya xurma ixrac edən ölkələrin siyahısında da ilk beşlikdə Azərbaycanın da adı var. Azərbaycanın xurma ixracının 2015-ci ildə 96%-i, 2016-cı ildə isə 95%-i Rusiyanın payına düşmüşdür. Rusiyanın 2016-cı ildə idxal etdiyi xurmanın 76%-i ölkəmizə məxsus olmuşdur. Azərbaycandan Rusiyaya ixrac edilən




Şəkil 7. Azərbaycan Respublikasından xurma ixracı və qiymətinin dəyişmə meyli (HS kodu 081070).

Mənbə: Trademap.org-un məlumatına əsasən tərtib edilmişdir.

xurmanın 1 tonunun qiyməti 2015-ci ildə 840, 2016-cı ildə 788 ABŞ dolları təşkil etmişdir. 2016-cı ildə Özbəkistandan Rusiyaya ixrac edilən xurmanın 1 tonu 581 ABŞ dolları, Çindən isə 1518 ABŞ dolları olmuşdur. Son 5 ilin məlumatlarının təhlili isə göstərir ki, ən ucuz xurma 2016-cı ildə ixrac edilmişdir.

Azərbaycan ixracında özünəməxsus yeri olan xurmanın (korolyok) məhsuldarlığı dünya üzrə orta məhsuldarlıqdan yüksəkdir.

Dissertasiya işində nar başda olmaqla digər rəqabətqabiliyyətli ixrac məhsulları ilə bağlı da təhlillərə yer verilmişdir. Həmçinin bu məhsulların aşkar müqayisəli üstünlükləri (AMÜ) hesablanmışdır. Bildiyimiz kimi AMÜ indeksinin 1-dən çox olması aşkar müqayisəli üstünlüyün mövcudluğunu, 1-dən aşağı olması isə onun mövcud olmadığını əks etdirir.

Tədqiqatlar göstərir ki, xurma və fındıq ən yüksək aşkar müqayisəli üstünlük göstəricilərinə malikdir.

Cədvəl 3-dən göründüyü kimi albalı, alma, kartof, pomidor, xiyar və kornişonlar aşkar müqayisəli üstünlüklərə malikdir. Bu məhsulların içərisində mandarin və sitrusun indeksi isə illər üzrə dəyişmiş və 2015-ci ildə 1-dən az olmuşdur. Bu isə onu göstərir ki, mandarin və sitrus aşkar müqayisəli üstünlüklərə malik deyil.



Cədvəl 3

Bəzi bitkiçilik məhsulları üzrə AMÜ göstəriciləri

| Məhsullar | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|
| Kartof | 4.25 | 8.55 | 4.09 | 5.78 | 5.97 | 4.50 | 8.51 | 8.39 |
| Pomidor | 1.10 | 2.46 | 1.55 | 2.49 | 1.84 | 3.58 | 4.48 | 9.95 |
| Xiyar və kornişonlar | 0.51 | 1.15 | 1.58 | 3.12 | 4.27 | 3.73 | 4.97 | 4.19 |
| Təzə meyvə və giləmeyvə | 15.40 | 28.01 | 22.72 | 21.11 | 6.66 | 4.16 | 3.88 | 6.04 |
| Xurma | – | – | – | – | 111.83 | 71.08 | 111.85 | 228.48 |
| Alma | 2.58 | 4.58 | 1.59 | 1.83 | 2.94 | 1.82 | 2.24 | 3.01 |
| Fındıq | 9.60 | 43.83 | 21.46 | 26.68 | 24.47 | 23.75 | 29.52 | 55.31 |
| Albalı təzə | 1.10 | 2.77 | 1.27 | 1.64 | 4.33 | 3.70 | 7.76 | 15.38 |
| Mandarin və sitrus hibridləri | 0.60 | 1.07 | 1.05 | 0.22 | 0.60 | 2.18 | 0.05 | 0.04 |

Qeyd: 2008-2011-ci illərdə xurma təzə meyvənin içərisində hesablanmışdır.

Mənbə: www.trademap.org və www.comtrade.un.org-un məlumatlarına əsasən müəllif tərəfindən hesablanmışdır.

Balassa indeksi vasitəsilə aşkar müqayisəli üstünlüklərin hesablanılması zamanı yalnız ixrac göstəricilərindən istifadə edildiyi halda, Xalis İxrac İndeksi metodu ilə hesablanması zamanı həm ixrac, həm də idxal göstəricilərindən istifadə olunur. Xalis ixrac indeksinin kəmiyyəti mənfi 1 "minimum"u (ölkə bu malı ancaq idxal edir) və müsbət 1 "maksimum"u (ölkə bu malı ancaq ixrac edir) arasında dəyişir. Yəni indeksin kəmiyyətinin mənfi ədəd olması üstünlüyün olmamasına, müsbət ədəd olması isə belə üstünlüyün mövcudluğuna dəlalət edir.

Bəzi məhsullar üzrə Xalis İxrac İndeksi metodu ilə aparılan hesablamaların nəticələri aşağıdakı cədvəldə verilmişdir (cədvəl 4).

Ümumiyyətlə, işdə bu sahə ilə bağlı aparılan tədqiqatın nəticəsinə görə, 2000-2015-ci illər ərzində ölkənin kənd təsərrüfatı və emal sənayesi üzrə rəqabətqabiliyyətli məhsul istehsalı artmışdır. Belə ki, Balassa indeksi metodu ilə qiymətləndirilmənin nəticələrinə görə 2000-2002-ci illər ərzində üstünlük əmsalı yüksək olan məhsulların ümumi sayı 20 idisə, 2010-2014-cü illər üzrə bu göstərici 30-a çatmışdır. Oxşar olaraq, Xalis İxrac İndeksi metodu ilə aparılan hesablamaların nəticələrinə görə 2000-2002-ci illər ərzində üstünlük əmsalı yüksək olan məhsulların ümumi sayı 33, 2010-2014-cü illər üzrə isə 42 olmuşdur.

Cədvəl 4

Bəzi bitkiçilik məhsulları üzrə Xalis İxrac İndeksi metodu ilə qiymətləndirilməsinin nəticələri

| Malın adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | Orta göstərici |
|---|---|---|---|---|---|---|---|
| Kartof, digərləri | 0.9995 | 0.9996 | 0.9994 | 0.9993 | 0.9995 | 0,3292 | 0,8878 |
| Tomat, təzə və ya soyudulmuş | 0.9995 | 0.9997 | 0.9997 | 0.9992 | 0.9995 | 0,9970 | 0,9991 |
| Xiyar və kornişonlar, təzə və ya soyudulmuş | 0.9990 | 0.9971 | 0.9991 | 0.9997 | 0.9030 | 0,3269 | 0,8708 |
| Qabığı təmizlənmiş meşə fındığı | 0.9998 | 0.9993 | 0.9800 | 0.9879 | 0.9761 | 0,9762 | 0,9866 |
| Alma, təzə | 0.9990 | 0.9998 | 0.9457 | 1 | 0.9988 | 0,9833 | 0,9878 |
| Albalı, gilas və s. | – | | 0.9985 | 0.9977 | 1 | 0,9992 | 0,9989 |
| Gavalı və göyəm, təzə | 0.8731 | 0.9895 | 0.9957 | 0.9547 | 1 | 0,9987 | 0,9686 |
| Xurma (Korolyok) | – | – | 0.9997 | 1 | 1 | 1 | 0,9999 |
| Üzüm çaxırı və ya üzümdən alınan spirtli içkilər (konyak və s.) | 0.9711 | 0.9777 | 0.8831 | 0.9366 | 0.9998 | 0,9319 | 0,9500 |
| Tütün xammalı | 0.9962 | 0.9966 | 0.9974 | 0.9987 | 0.6418 | 0,4102 | 0,84015 |

Mənbə: Trademap.org-un məlumatlarına əsasən müəllif tərəfindən hesablamışdır.

Bu fəsildə həmçinin emal sferasının bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinə təsiri də öyrənilmişdir.

Göstərilmişdir ki, ixracda əsas paya sahib olan bir sıra emal olunmuş bitkiçilik məhsullarının əsas xammalı ölkəyə kənardan gətirilmişdir. Bu siyahıya çay, şəkər, bitki yağlarını aid etmək olar. Əslində həmin xammalı idxal edərək əlavə dəyər qazandırmaq yaxşı haldır. Lakin 2015-ci ildə ölkə baş verən devalvasiyadan sonra bu emal müəssisələrinin rəqabətqabiliyyətli məhsul istehsalı ilə bağlı problemi yaranmışdır və həmin məhsulların ixracı da kəskin azalmışdır. Belə ki, 2016-cı ildə 2015-ci illə müqayisədə çayın ixracı 68%, şəkərin ixracı 71%, bitki və heyvan mənşəli piylərin və yağların ixracı 89% azalmışdır.

Araşdırma göstərmişdir ki, Azərbaycanda fəaliyyət göstərən emal sənayesinin istehsal gücü məhsulunu bazara çıxara bilməyən sahibkarların istehsal etdiyi meyvə-tərəvəz məhsullarını qəbul etməyə tam imkan vermir. Bundan əlavə, anbarların çatışmaması (2015-ci il kənd



təsərrüfatı siyahıyaalınması zamanı məlum olmuşdur ki, ölkədə kənd təsərrüfatı məhsulunu saxlamaq üçün 3117,1 min ton tutuma malik 218,1 min anbar mövcuddur), eləcə də məhsulun saxlanması üçün təklif edilən şərtlərin istehsalçılar üçün məqbul hesab edilməməsi də onlardan səmərəli istifadə olunmamasını şərtləndirir.

Meyvə və tərəvəz emalı sənayesinin inkişaf etdirilməsində əsas məqsəd məhsul itkisinin azaldılması, məhsulların beynəlxalq standartlara uyğun emalı və paketlənməsi, məhsulların təhlükəsizliyinə təminat və məhsula əlavə dəyərin qatılması ilə sektorun iqtisadi səmərəliliyini şərtləndirir. Tədqiqat zamanı "Bərdə Çörək" ASC, "Kristal" MMC və digər emal müəssisələrində də araşdırmalar aparılmışdır. Hazırda ölkəmizdə emal olunun bitkiçilik məhsullarının bir hissəsi isə rəqabətqabiliyyətlidir və bu sahədə inkişaf üçün potensial mövcuddur. Ümumiyyətlə, "Azərsun Holdinq", "Gilan Holdinq" "Aznar", "Az-Granata" MMC kimi şirkətlərin emal etdikləri bitkiçilik məhsulları ixrac bazarlarında da rəqabətə tab gətirə bilir. Məsələn, şirə və nektar, şərab, konyak, tünd içkilər, viski, kompot və s. istehsal edən "Az-Granata" MMC-nin illik istehsal gücü 100 milyon qablaşdırmaya bərabərdir. Bu şirkət ABŞ və Almaniya da daxil olmaqla 20 ölkəyə məhsul ixrac edir. Yaxın perspektivdə modern emal müəssisələrinin sayının artırılması ilə yanaşı, respublikamızda kartofun, soğanın, pomidorun (ketçup, pomidor qurusu və s.) və s. bu kimi məhsulların emalına diqqət artırılmalıdır.

**Dissertasiya işinin "Bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin əsas istiqamətləri" adlanan** dördüncü fəslində modernləşdirmə əsasında bitkiçilik məhsulları istehsalının iqtisadi səmərəlilik parametrlərinin yaxşılaşdırılması ilə yanaşı, bitkiçilik məhsullarının keyfiyyət və məhsuldarlıq göstəricilərinin yüksəldilməsi məsələsi araşdırılmış, bitkiçilik təsərrüfatlarında sahələrin vəhdəti və ölçüləri optimallaşdırılmış, rəqabətqabiliyyətliliyin yüksəldilməsi alətlərindən strateji menecmentin tətbiqi, marketinq xidmətlərinin qurulmasıilə bağlı mövcud vəziyyət tədqiq edilmişdir.

Tədqiqatın modernləşdirmə əsasında bitkiçilik məhsulları istehsalının iqtisadi səmərəlilik parametrlərinin yaxşılaşdırılması paraqrafında göstərilmişdir ki, istehsalın modernizasiyası yeni texnologiyaların tətbiqi ilə xərclərin azaldılmasına gətirir və bu da məhsulun rəqabət qabiliyyətinin artmasına xidmət edir. Bu prosesdə adətən yenilikdən ilk istifadə edənlər daha çox faydalanırlar. Sonrakı dövrdə isə istehsalın modernizasiyası qiymətin düşməsinə səbəb olur.

və bu baxımdan modernizatsiyadan ən çox faydalananlar istehlakçılar olur.

Tədqiqatçı bu paraqrafda FTMMS məlumatlarından istifadə etməklə təsərrüfatların məhsuldarlıq və səmərəlilik göstəriciləri ilə bağlı hesablamalar aparmışdır. Məlumat üçün qeyd edək ki, bütün rayonların seçilməsi zamanı qrafik çox rəngli alınardı və anlaşılmaz olardı. Ona görə də təsadüfi seçmə əsasında bir neçə rayonun rəqəmləri üzrə aparılan hesablamalar qrafikdə verilmişdir. Bu zaman aydın olmuşdur ki, rayonlar arasında oxşarlıq çoxdur. Fərqlər isə əsasən məhsuldarlıqla bağlıdır və bu da kiçikdir.




Şəkil 8. Rayonlar üzrə təsərrüfatlarda səmərəlilik və məhsuldarlıq

Bu fəsildə ölkə üzrə bitkiçilik məhsullarının bir hektar sahəsinə görə gəlir, xərc və mənfəət göstəriciləri hesablanmışdır (cədvəl 5).

Cədvəldən göründüyü kimi kartof, bostan məhsulları, tərəvəz istehsalı daha çox mənfəətlidir.

Qeyd edək ki, kənd təsərrüfatı məhsullarının artırılması və iqtisadi səmərəliliyin yüksəldilməsi emal sənayesi sahələrinin inkişafı, onların yerləşdirilməsi, maddi-texniki bazasının və texnoloji proseslərin düzgün qurulması  sahənin dövlət dəstəyindən çox asılıdır. Bu paraqrafda Azərbaycanın qida sənayesi müəssisələri üzrə və şərab istehsalı üzrə SWOT təhlillər aparılmışdır.

Bu fəsildə bitkiçilik məhsullarının keyfiyyət və məhsuldarlıq göstəricilərinin yüksəldilməsi də araşdırılmışdır. Qeyd edilmişdir ki, bazarda rəqabətqabiliyyətli olmaq üçün xərclərin azaldılması böyük əhəmiyyətə malikdir. Xərclərin azaldılmasının əsas mənbələrindən biri də məhsuldarlığın artırılmasıdır. Burada bitkiçilikdə məhsuldarlığın



Cədvəl 5

Ölkə üzrə bitkiçilik məhsullarının bir hektar sahəsinə görə gəlir, xərc və mənfəət göstəriciləri (2016-cı il)

| Bitkilər | 1 hektardan ümumi gəlir, AZN | 1 hektara çəkilən faktiki xərc, AZN | Gübrənin güzəştsiz qiymətə satılacağı halda xərc, AZN | Gübrəyə subsidiyanın faktiki xərcə nisbəti, % | 1 hektardan mənfəət, AZN | 1 hektara düşən mənfəət və subsidiyanın cəmi, AZN |
|---|---|---|---|---|---|---|
| Buğda | 639.2 | 248.2 | 334.7 | 34.9 | 394.0 | 484.0 |
| Arpa | 472.0 | 223.3 | 284.6 | 27.4 | 248.7 | 298.7 |
| Qarğıdalı | 1727.2 | 402.0 | 556.9 | 38.5 | 1325.2 | 1375.2 |
| Paxlalılar | 2272.0 | 399.1 | 470.0 | 17.8 | 1872.9 | 1922.9 |
| Kartof | 8891.6 | 2247.4 | 2446.3 | 8.9 | 6644.2 | 6694.2 |
| Tərəvəz | 3817.7 | 1096.4 | 1174.1 | 7.1 | 2721.3 | 2771.3 |
| Bostan | 3714.0 | 623.2 | 675.2 | 8.3 | 3090.8 | 3140.8 |
| Meyvə | 2587.5 | 691.9 | 798.2 | 15.4 | 1895.6 | 1945.6 |
| Üzüm (süfrə) | 2037.3 | 656.7 | 702.2 | 6.9 | 1380.6 | 1430.6 |
| Üzüm (texniki) | 1279.7 | 444.7 | 461.1 | 3.7 | 835.0 | 885.0 |
| Pambıq | 956.8 | 601.0 | 670.2 | 11.5 | 355.8 | 546.3 |
| Tütün | 2988.0 | 628.7 | 748.9 | 19.1 | 2359.3 | 2442.2 |
| Şəkər çuğunduru | 1424.3 | 531.8 | 592.6 | 11.4 | 892.5 | 942.5 |
| Günəbaxan | 1771.0 | 479.4 | 537.0 | 12.0 | 1291.6 | 1341.6 |
| Yonca | 692.4 | 250.8 | 263.5 | 5.1 | 441.6 | 491.6 |

Mənbə: FTMMS-in məlumatına əsasən tərtib edilmişdir.

aşağı olmasına səbəb olan amillərə toxunulmuş, xüsusən də keyfiyyətli toxum təminatı ilə bağlı problemlər qabardılmışdır.

İşdə bitkiçilik məhsullarının məhsuldarlığı ilə bağlı dünyanın müxtəlif ölkələri ilə müqayisələr aparılmışdır. Belə ki, FAO-nun məlumatına əsasən, 2014-cü ildə xiyarın 1 hektara məhsuldarlığı Türkiyədə 265 sentner, Hollandiyada 7357 sentner, Almaniyada 865 sentner, Fransada 792 sentner, İngiltərədə 538 sentner, Belarusda 364 sentner olduğu halda respublikamızda 150 sentnerdir. Dünya üzrə orta göstərici isə 337 sentnerdir. Doğrudur, Hollandiya, Birləşmiş Krallıq yüksək məhsuldarlığa istixanaların hesabına nail olub. Respublikamızda  istixanaların  inkişafı  tərəvəzin məhsuldarlığının

artmasına ciddi təsir göstərəcək. Məhsuldarlığın yüksəlməsi isə tərəvəz ixracının artması üçün böyük potensial yaradır.

İşdə respublika üzrə gübrədən istifadə vəziyyəti də araşdırılmışdır. Məlum olmuşdur ki, 2014-cü ildə əkin sahələrinin 54%-nə, 2015-ci ildə 42%-nə, 2016-cı ildə isə 30%-nə gübrə verilməmişdir. Təhlillərdən aydın olmuşdur ki, 2016-cı ildə 2015-ci illə müqayisədə əkinlərə mineral gübrələrin verilməsi 2 dəfə artmışdır. Göstərilmişdir ki, istehsalçıların mineral gübrələrlə təminatının yaxşılaşdırılması üçün dövlət büdcəsi hesabına dəstək verilməsinin bu artımda böyük payı olmuşdur. Qeyd edilmişdir ki, əkin sahələrinin 30%-nə gübrə verilməməsi məhsuldarlıq baxımından ciddi problemdir və bununla yanaşı, həmin problemi istehsalçılar üçün bu fürsətə çevirmək mümkündür. Belə ki, gübrədən və kimyəvi dərmanlardan istifadə etməyən təsərrüfatlarda orqanik istehsal təşkil oluna bilər.

İşdə kənd təsərrüfatının texnika ilə təminatı ilə bağlı mövcud vəziyyət də qiymətləndirilmişdir.




Şəkil 9. Əsas növ kənd təsərrüfatı texnikasının parkı, ilin axırına
Mənbə: Dövlət Statistika Komitəsi

Qeyd edilmişdir ki, 2016-cı ilin məlumatına əsasən ölkədə kartofyığanların (5 ədəd), çuğunduryığanların (1 ədəd), qarğıdalıyığanların (2 ədəd), kultivatorların (79), ot biçənlərin (128 ədəd) və s. texnikanın azalması ciddi problemdir. Belə ki, 2016-cı ildə 1 qarğıdalıyığan 17928 ha, kartofyığan 12558 və çuğunduryığan 7061 ha, taxılyığana 736 ha əkin sahəsi düşmüşdür. Xüsusən də 2015-ci ildə kənd təsərrüfatı texnikasının uçotunun aparılması zamanı 2014-cü



illə müqayisədə traktorların 2 dəfəyə, kotanların 10 dəfəyə, taxılyığanların 3,5 dəfəyə, toxum səpənlərin 11 dəfəyə, ot presləyənlərin 4 dəfəyə yaxın azalmasının üzə çıxması təcili tədbirlərin görülməsini zəruri edir.

Bu fəsildə istehsal və bazar infrastrukturları təminatının inkişaf etdirilməsi məsələsi də ətraflı araşdırılmışdır. Göstərilir ki, son illər aqroparkların yaradılması da bu sahədə mühüm addımdır. Ərazi klasteri və kooperasiya modeli əsasında yaradılan aqroparklar aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq edərək sosial-iqtisadi inkişafın sürətləndirilməsində, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixrac potensialının və məşğulluğun artırılmasında xüsusi əhəmiyyət kəsb edir.

2017-ci ilin sentyabr ayına olan məlumata görə, respublikada 26 rayon üzrə 157,8 min hektar ərazidə 37 aqroparkın yaradılması təşviq olunur. Bundan 23-ü iri bitkiçilik təsərrüfatıdır. Bu aqroparklarda 10 min yeni iş yerinin açılması nəzərdə tutulur. 10 aqropark üzrə dəyəri 390 milyon manat olan 13 layihəyə investisiya təşviqi sənədi verilib. O cümlədən indiyədək 10 min hektar ərazidə 2 aqropark yaradılıb. Bunlar Xaçmaz rayonunda "Yalama Aqropark"ı və Şəmkir rayonunda "Şəmkir Aqropark"ıdır. Hazırda 58 min hektar ərazidə 12 aqroparkın yaradılmasına başlanılıb. Aqroparklar tam fəaliyyətə başladıqdan sonra il ərzində təxminən 500 milyon manat dəyərində kənd təsərrüfatı məhsullarının istehsal olunacağı proqnozlaşdırılır.

Qeyd edək ki, aqroparkları klasterial inkişafın rüşeymi və ya ilkin mərhələsi hesab edə bilərik. Əsas nüvə məhsul(lar)un olmasıdır ki, bütün dəyər zənciri bunun istehsalından tutmuş satışına qədər formalaşsın. Sadə formul belədir: aqropark + nüvə məhsul = klaster. Qənaətimizcə, düzgün istiqamət seçilsə, aqroparklarımız klassik klasterə çevrilə biləcək. Məhz Strateji Yol Xəritəsində göstərilən tədbirlərin icrasından aqrar sahədə klaster yanaşmasını tətbiq etmək imkanlarını artırır.

Bu fəsildə bitkiçilik təsərrüfatlarında sahələrin vəhdəti və ölçülərinin optimallaşdırılması ətraflı öyrənilmişdir. Göstərilmişdir ki, aparılmış aqrar islahat nəticəsində 2239 kolxoz, sovxoz və sair kənd təsərrüfatı müəssisəsi ləğv edilərək onların bazasında və digər əsaslarla müxtəlif təşkilati-hüquqi formalı təsərrüfatlar yaradılmışdır.

«Aqrar islahatın əsasları haqqında» Azərbaycan Respublikasının Qanununda kolxoz və sovxozların bazasında torpaq və əmlak üzərində xüsusi mülkiyyətə əsaslanan birgə təsərrüfatların, koopera-

tivlərin, şərikli təsərrüfatların, səhmdar cəmiyyətlərinin yaradılması nəzərdə tutulsa da islahatların gedişində Azərbaycanın kənd təsərrüfatının sosial-iqtisadi strukturunda kiçik ölçülü ailə təsərrüfatları həlledici yerə sahib olmuşlar.

2016-cı ildə kənd təsərrüfatının ümumi məhsulunda fərdi sahibkarların, eləcə də ailə kəndli və ev təsərrüfatlarının payı 94.3% olmuşdur. Amma son illər ölkədə aqroparkların və digər təsərrüfat cəmiyyətlərinin yaradılması nəticəsində bitkiçilikdə ümumi məhsulun strukturunda müəssisələrin payı az da olsa artmağa başlamışdır. Məsələn, 2016-cı ildə pambıq istehsalının 16.6%-i kənd təsərrüfatı müəssisələrinin payına düşmüşdür. Qeyd edək ki, DSK-nın 2015-ci ilə olan kənd təsərrüfatı siyahıyaalması məlumatlarının təhlilindən aydın olur ki, bir təsərrüfata orta hesabla 1,7 ha torpaq sahəsi düşür. Təsərrüfatların 48 faizinin sahəsi 0,5 hektardan azdır. Ümumiyyətlə isə təsərrüfatların 96 faizinin malik olduğu kənd təsərrüfatına yararlı torpaq sahəsi 5 hektardır və ya ondan kiçikdir.

Biz təhlillərimizdə Kənd Təsərrüfatı Nazirliyinin bitkiçilik təsərrüfatları ilə bağlı 2014-cü və 2015-ci illər üzrə açıqladığı məlumatlardan istifadə etmişik. Subsidiya alan təsərrüfatlarla bağlı məlumatların təhlildən məlum olur ki, kiçik təsərrüfatlar bu sektorda mühüm mövqeyə sahibdirlər və onların rəqabət qabiliyyətinin artırılması vacibdir (Cədvəl 6).

Cədvəl 6

Torpaq sahələrinə görə təsərrüfatların qruplaşdırılması

| | 2014-cü ildə | | 2015-ci ildə | | 2014-cü ildə | | 2015-ci ildə | |
|---|---|---|---|---|---|---|---|---|
| | Təsərrüfatların sayı | Xüsusi çəkisi % | Təsərrüfatların sayı | Xüsusi çəkisi % | Təsərrüfatların əkini yeri (Ha) | Xüsusi çəkisi % | Təsərrüfatların əkini yeri (Ha) | Xüsusi çəkisi % |
| 0-<1 | 92754 | 24.2 | 77341 | 20.78 | 63468.7 | 4.9 | 49619.49 | 3.93 |
| 1-<2 | 113884 | 29.7 | 112775 | 30.30 | 173420.9 | 13.4 | 160616.7 | 12.71 |
| 2-<5 | 134202 | 35.0 | 137765 | 37.01 | 420414.3 | 32.4 | 415445 | 32.86 |
| 5-<10 | 30141 | 7.9 | 31227 | 8.39 | 204937.7 | 15.8 | 204774 | 16.20 |
| 10-<50 | 11109 | 2.9 | 11652 | 3.13 | 213547.4 | 16.5 | 211987.1 | 16.77 |
| 50-<100 | 906 | 0.2 | 959 | 0.26 | 62897.11 | 4.9 | 64161.27 | 5.08 |
| 100-<1000 | 473 | 0.1 | 496 | 0.13 | 96757.01 | 7.5 | 99279.3 | 7.85 |
| 1000 ha və daha çox | 17 | 0.004 | 21 | 0.01 | 60267.4 | 4.7 | 58268.23 | 4.61 |
| Cəmi | 383486 | 100 | 372236 | 100 | 1295710.5 | 100 | 1264151 | 100 |

Mənbə: Cədvəl Kənd Təsərrüfatı Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.



Cədvəldən göründüyü kimi 2015-ci ildə respublika üzrə 1295710.5 hektar sahədə bitkiçilik məhsulları becərən 383486 təsərrüfat dövlət büdcəsindən subsidiya almışdır. Rəsmi məlumatın təhlilindən aydın olur ki, respublika üzrə subsidiya alan təsərrüfatların 24.2 faizinin sahib olduğu torpaq sahəsi ancaq 1 hektara qədərdir. Yəni bu təsərrüfatlar həddən artıq kiçikdir. Ümumiyyətlə isə respublika üzrə subsidiya alan təsərrüfatların 88.9 faizinin malik olduğu torpaq sahəsi 5 hektara qədərdir. Bu kiçik təsərrüfatlar əkin sahələrinin 50.7 faizində kənd təsərrüfatı fəaliyyəti ilə məşğuldurlar. Respublika üzrə 1000 hektardan çox torpaq sahəsi olan cəmi 17 təsərrüfat mövcuddur. Bu təsərrüfat isə əkin yerinin 4.7 faizinə (60267.4 ha) sahibdirlər.

Göründüyü kimi, hazırda bitkiçilikdəki təsərrüfatların böyük əksəriyyəti kiçikdir və bu təsərrüfatlarda növbəli əkin dövriyyəsi tətbiq etmək çox çətindir. Həmçinin kiçik təsərrüfatların əmtəəlik səviyyəsi xeyli aşağıdır və müasir yüksək məhsuldar texnikadan istifadə etmək çətindir.

Əkin sahələrinin strukturunda baş vermiş dəyişikliklərin təsiri olaraq kənd təsərrüfatında işləyənlərin sayı mexaniki artmışdır. Həmçinin ölkədə aparılan tədqiqatlarda vurğulanır ki, ailə təsərrüfatlarının torpaq sahəsinin həcminin kiçik olması nəticəsində onlar daha çox ərzaqlıq məhsul istehsal etməyə istiqamətlənmiş tədbirlər həyata keçirirlər. Belə bir şəraitdə kənd təsərrüfatında istehsalın intensivləşdirilməsinə nail olmaq mümkün olmur və daxili bazarın tələbatını ödəmək, rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasını təmin etmək və bitkiçilik məhsullarının ixracını həyata keçirmək çətinləşir. Problemin həlli kimi kənd təsərrüfatının sahə quruluşunun təkmilləşdirilməsi, xırda təsərrüfatların bazasında orta və iri təsərrüfatların yaradılması göstərilir. Ona görə də aqrar siyasətin əsas istiqamətlərindən biri kimi xırda təsərrüfatların könüllülük əsasında birləşdirilərək orta və iri həcmli təsərrüfatların yaradılması zərurəti və istehsalın dövlət tərəfindən tənzimlənməsi mexanizminin yaradılması ilə bağlı təkliflər səslənməkdədir.

Qeyd edək ki, kiçik təsərrüfatların bazasında iri təsərrüfatların yaradılmasına münasibət birmənalı deyil. Xüsusən də son illərin iqtisadi ədəbiyyatlarında təsərrüfatların ölçüləri və təsərrüfatın səmərəliliyi arasındakı qarşılıqlı əlaqə geniş təhlil olunur. Kiçik fermer təsərrüfatlarının böyük fermer təsərrüfatlarından daha yaxşı fəaliyyət göstərməsi sualı dünyada hələ də müzakirə olunan əsas məsələdir. Müzakirə fermer təsərrüfatının böyüklüyü və məhsuldarlıq arasında əks

əlaqənin olmasını ehtiva edən empirik faktla başladı.

Hətta bəzi müəlliflər Qərbi Avropa ölkələrindəki iri təsərrüfatların ümumi iqtisadiyyata mənfi təsirini qeyd edərək gələcək inkişaf strategiyalarında təsərrüfatların orta ölçülərinin kiçildilməsi təklifləri ilə çıxış edirlər.

Bununla yanaşı, inkişaf etməkdə olan ölkələrdə aparılan tədqiqatlar isə əks hipotez üzərində fokuslaşmışdır. Bu araşdırmalar göstərir ki, kiçik təsərrüfatlar daha məhsuldardır. Çünki burada torpaqdan daha intensiv şəkildə istifadə olunur. Amma burada digər istehsal vasitələrindən istifadə səviyyəsi çox da nəzərə alınmır. Kiçik təsərrüfatların daha səmərəli olmasını əsaslandıran fikirlərdən biri də bundan ibarətdir ki, burada transaksion xərclər daha azdır.

Kiçik təsərrüfatlarda ixtisaslaşmış əməyə tələbatın az olması əmək xərclərini də daha az edir. Amma bununla yanaşı, kiçik təsərrüfatların bir çox hallarda kapital xərcləri daha yüksək olur.

Bunun əksi olaraq digər müəlliflər də kiçik təsərrüfatların iqtisadi səmərəliliyinin aşağı səviyyədə olmasını səbəb gətirərək iri təsərrüfatların formalaşdırılmasının daha məqsədəuyğun olduğunu göstərirlər. Bu mövqenin tərəfdarı olan Qərb iqtisadçıları böyük təsərrüfatlar texniki və ya resursların bölgüsü baxımından daha səmərəli olduğunu iddia edirlər.

Dünya təcrübəsini nəzərə almaqla belə bir mühüm cəhətə də diqqət yetirmək lazımdır ki, aqrar sektorda səmərəli ölçülü təsərrüfatlar sisteminin formalaşması probleminin həllinin başlıca şərtlərindən biri ekzogen xarakterli amillə – aqrar sektordan kənarda istehsal və xidmət sahələrinin geniş inkişafı ilə bağlıdır. Məhz kənd təsərrüfatından kənar sahələrdə normal həcmdə gəlir əldə edilməsinə imkan verən iş yerlərinin açılması kiçik torpaq sahələrinin becərilməsi ilə məşğul olan əmək qabiliyyətli əhalinin əhəmiyyətli hissəsinin kənd təsərrüfatından ayrılması və bununla bağlı azad olan torpaq sahələrinin bazasında əlverişli ölçülərə malik olan təsərrüfatların yaradılması üçün istifadə edilməsinə yol açır.

Bu fəsildə rəqabətqabiliyyətliliyin yüksəldilməsi alətləri: strateji menecmentin tətbiqi, marketinq xidmətlərinin qurulmasına da toxunulmuşdur. Qeyd edilmişdir ki, kənd təsərrüfatında məhsulların keyfiyyətinin yaxşılaşdırılması, qida təhlükəsizliyinin təmin edilməsi və s. məsələlərlə bağlı yeni tələblərin irəli sürülməsi istehsalçılar arasında rəqabəti gücləndirməklə yanaşı, onların strateji menecmentə maraqlarını da artırmışdır. Artıq inkişaf etmiş ölkələrdəki kənd təsərrüfatı müəssisələrində strateji menecmentin imkanlarından



istifadə edilir. Strateji menecmentin sahibkarlıq fəaliyyəti və idarəetmə sistemi ətrafında baş verən dəyişkənliklərə uyğunlaşma, inkişafın proqnozlaşdırılması və planlaşdırılması, fəaliyyətə nəzarət edilməsi prosesi olduğu izah edilərək Azərbaycan Respublikasında fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrində də onun tətbiqi imkanları araşdırılmışdır. Göstərilmişdir ki, 90-cı illərin əvvəllərində strateji planlaşdırma daha yeni və daha əhatəli bir konseptual yanaşma ilə – strateji menecmentlə əvəzlənməyə başlanmışdır. Strateji menecment, sadəcə, planlaşdırma, icra və nəzarət prosesi deyil, həmçinin ağıl və davranışın vəhdətidir. Strateji menecment sizdən gələcəyi düşünən, daha fəal, qabaqlayıcı, hara getdiyini və ora necə getməyin lazım olduğunu dəqiq bilən biri olmağı tələb edir.

İşdə göstərilir ki, strateji menecmenti strateji planlaşdırmadan fərqləndirən əsas əlamətlər onun bir sıra yeni elementlərə malik olmasıdır. Bu elementləri asağıdakı kimi sıralamaq olar:

- sahibkarlığın gələcək təsvirini vermək imkanı yaranır;
- yeni, strateji düşüncə tərzi formalaşır;
- strateji inkişaf üçün cavabdeh olan "yuxarılar" nəzərdə tutulan planları "aşağılar"la bölüşür;
- dəyişkənliklər üçün nəzərdə tutulan təşkilati qabiliyyətlər inkişaf etdirilir;
- sahibkarlıq mədəniyyəti gələcək planların qarantı rolunu oynayır;
- sahibkarlıq mühiti elə bir kontekst əldə edir ki, planlaşdırılmayan strategiyalar da üzə çıxır;
- strateji inkişafa nəzarətin instrumental imkanları genişləndirilir və s.

Strateji menecment sahibkarlıq fəaliyyəti və idarəetmə sistemi ətrafında baş verən dəyişkənliklərə uyğunlaşma prosesi, inkişafın proqnozlaşdırılması və planlaşdırılması, fəaliyyətə nəzarət edilməsi prosesidir.

İşdə Azərbaycanın aqrar sahədəki müəssisələrində Kaplan və Norton tərəfindən təklif edilən və strateji idarəetmə aləti olan BSC istifadə imkanları da qiymətləndirilir. Qeyd edilir ki, BSC maliyyə və qeyri-maliyyə göstəricilərinin kombinasiyası kənd təsərrüfatı müəssisələrinə aqrar sektordakı biznes mühitinə uyğun olan strategiyaların hazırlanmasına imkan verir. Vurğulanır ki, Azərbaycan kimi ölkələrdə bu sistem kənd təsərrüfatının spesifik xüsusiyyətlərinə uyğunlaşdırılmalıdır.

Bu fəsildə o da qeyd edilmişdir ki, Azərbaycanın aqrar bölməsində marketinq sisteminin iqtisadi səmərəliliyi kompleks tədbirlərlə yüksəldilməlidir. Bu həm də aqrar sahədə fəaliyyət göstərən müəssisə

**Dissertasiya işinin "Bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi mexanizmlərinin təkmilləşdirilməsi" adlanan** beşinci fəslində bitkiçilik məhsulları istehsalçılarına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi, daxili bitkiçilik məhsulları bazarının qorunması mexanizmi, tarif və qeyri-tarif vasitələrinin səmərəli əlaqələndirilməsi, bitkiçilik məhsulları ixracının təşviq mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri tədqiq edilmişdir.

Tədqiqatçı bitkiçiliyə ayrılan dövlət yardımının məhsul və qeyri-məhsul növlərinə görə bölgüsünü aparmışdır (sxem 2).




Sxem 2. Bitkiçiliyə verilən dövlət yardımının məhsul və qeyri-məhsul növlərinə görə bölgüsü



Bitkiçiliyə tətbiq edilən dövlət dəstəyindən yalnız vergi güzəştlərini dolayı subsidiya hesab etmək olar. Digər yardımlar birbaşa şəkildə istehsal xərclərinin azaldılmasına və gəlirlərin dəstəklənməsinə xidmət edir.

2015-ci ilə kimi olan müddətdə kənd təsərrüfatına 1 milyard 500 milyon manat məbləğində vergidən azad olma vasitəsi ilə dövlət dəstəyi göstərilmişdir. Bununla yanaşı, dövlət tərəfindən bu sahəyə 104472 min manat güzəştli kredit verilmişdir. Həmçinin 2016-cı ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq və motor yağlarına görə 59.6 milyon manat yardım göstərilmişdir (cədvəl 7).

Cədvəl 7

Azərbaycan Respublikasında kənd təsərrüfatına dövlət dəstəyi (2007-2016-cı illər) (milyon manat)

| İllər | Yanacaq və motor yağlarına görə yardım | Buğda və çəltik səpininə subsidiya | Gübrənin güzəştli satışı üçün sərf edilən vəsait | 1-ci reproduksiyalı 2-ci reproduksiyalı toxumlar və ting üçün sərf edilən vəsait | Orijinal superelit və elit toxumlar üçün xərclənən vəsait | Cəmi |
|---|---|---|---|---|---|---|
| 2007 | 42.19 | 20.21 | 2.43 | 0.89 | 0.39 | 66.11 |
| 2008 | 53.79 | 29.68 | 6.72 | 3.78 | 0.59 | 94.56 |
| 2009 | 59.84 | 22.92 | 6.54 | 4.60 | 0.93 | 94.83 |
| 2010 | 55.51 | 23.41 | 24.50 | 5.95 | 0.93 | 110.30 |
| 2011 | 52.78 | 25.19 | 12.10 | 5.83 | 0.93 | 96.83 |
| 2012 | 56.74 | 24.89 | 20.10 | 7.30 | 0.93 | 109.96 |
| 2013 | 57.40 | 20.15 | 24.90 | 7.32 | 0.82 | 110.59 |
| 2014 | 51.80 | 20.1 | 32.50 | 9.10 | 0.93 | 114.43 |
| 2015 | 63.2 | 17.1 | 51.8 | 5.3 | | 137.4 |
| 2016 | 59.6 | 19.3 | 60.4 | 8.9 | | 148.2 |

Mənbə: Kənd Təsərrüfatı Nazirliyi (agro.gov.az)

Eyni zamanda 2016-cı ildə pambıq istehsalçılarına 8.9 milyon manat, tütün istehsalçılarına isə 95 min manat subsidiya verilmişdir. Ümumilikdə götürdükdə isə 2007-2016-cı illər ərzində istehsalçılara dövlət tərəfindən 1 milyard manatdan çox yardım verilmişdir.

Tədqiqatda subsidiya və güzəştlərin ikinci əkinə də şamil olunması, yəni il ərzində iki dəfə əkin aparana ikinci dəfə subsidiyanın verilməsi ölkədə yem təminatının gücləndirilməsində xüsusi rol oynayacağı göstərilir. Qeyd edilir ki, təkrar əkinə verilən subsidiyanın 2 dəfə artırılması daha məqsədəuyğundur. Bununla yanaşı, bir mühüm məqama da diqqət çəkilir ki, subsidiyalar müddətsiz olanda

stimullaşdırıcı əhəmiyyətini itirir. Onun üçün subsidiyalar müddətli olmalıdırlar. İndiki məqamda orqanik kənd təsərrüfatı istehsalına da 5 il müddətində subsidiya verilməsi məqsədəuyğundur. Həmçinin hazırkı qaydada əkin sahəsi üzrə subsidiya vermək hər zaman səmərəli olmur. Məsələn, yanacaq və motor yağlarına görə ödənilən 50 manat bəzi məhsulların xərclərinin az hissəsini təşkil edir və stimullaşdırıcı xarakter daşımır. Onun üçün də bu dövlət yardımının əvəzinə iqtisadi rayonlar üzrə ixtisaslaşmanın təşviqinə yönələn və konkret məhsullar üzrə subsidiya tətbiq edilə bilər.

İşdə FTMMS-nin 2015-ci il üzrə məlumatlarından istifadə olunaraq bir sıra bitkiçilik məhsulları üçün effektiv mühafizə əmsalı (EPC) və resursların nominal mühafizə əmsalı (NPC) hesablanmışdır. Bu zaman məlum olmuşdur ki, bitkilərin əksəriyyəti üçün mühafizə əmsalı və resursların nominal mühafizə əmsalı 1-dən kiçikdir. Resursların nominal mühafizə əmsalının 1-dən kiçik olması daxili bazar qiymətlərinin beynəlxalq paritet qiymətlərdən kiçik olmasını göstərir. Bu isə o deməkdir ki, kənd təsərrüfatı məhsulları istehsalçıları xammal və materialları əldə edərkən subsidiyadan istifadə edirlər. Bu subsidiya aparılan iqtisadi siyasətin təsirinin nəticəsi olmaqla xammal və materialların qiymətlərinə birbaşa dotasiyalar, idxal olunan məhsullara tətbiq edilən vergi və rüsumlar, ticarət məhdudiyyətləri (kvotalar və s.), rəsmi mübadilə kursu vasitəsilə təsirlər şəklində öz əksini tapa bilər. Digər tərəfdən, iqtisadi siyasətin və bazarın təsiri ilə formalaşan kənd təsərrüfatı xammalının aşağı qiymətləri emal sənayesi üçün dolayı subsidiya kimi çıxış edə bilər.

Həmçinin məhsul üçün mühafizə əmsalının 1-dən kiçik olması da daxildə istehsal edilmiş məhsulun qiymətinin dünya bazarındakı analoji məhsulun qiymətindən kiçik olmasını göstərir. Belə məhdudlaşdırıcı təsir daxili istehsalçıya dolayı vergilərin tətbiqi, bazarda əlverişli olmayan rəqabət modelinin mövcudluğu (həddən artıq istehsalçı – aşağı qiymətlər) və s. şəklində meydana çıxa bilər.

Effektiv mühafizə əmsalının 1-dən kiçik olması isə faktiki qiymətlərlə yaranan əlavə dəyərin kölgə qiymətlərlə yarana biləcək əlavə dəyərdən kiçik olduğunu göstərir. Yəni istehsalçılar iqtisadi siyasətin məhdudlaşdırıcı təsirinə məruz qalırlar, başqa sözlə, yarana biləcək potensial əlavə dəyərin bir hissəsi ya yüksək vergilər vasitəsilə büdcəyə alınır, yaxud da əlverişsiz bazar konyunkturasının təsiri altında, ümumiyyətlə, yaranmır (aşağı qiymətlər, istehsal vasitələrinin yüksək qiymətləri və s.).



İşdə qeyd edilmişdir ki, Azərbaycan Respublikasının beynəlxalq bazarlara inteqrasiyası iqtisadiyyatın digər sektorları kimi kənd təsərrüfatında da yerli istehsalçıların həm daxili, həm də xarici bazarda kəskin rəqabətlə üzləşməsi ilə nəticələnir. Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsalçılarının bu rəqabətə hazır olmasında isə indiyə kimi qəbul edilən və icra olunan dövlət proqramları da müəyyən rol oynayır. Hökumət bu proqramlar vasitəsilə kənd təsərrüfatında rəqabətqabiliyyətli məhsul istehsalını stimullaşdırmaqla yerli istehsalçıları daxili və xarici bazarda rəqabətə hazırlayır. İddiaçı respublikamızda qəbul olunan dövlət proqramlarında rəqabətqabiliyyətli məhsul istehsalını stimullaşdıran tədbirlərlə bağlı mövcud vəziyyəti araşdıraraq, bu sənədlərin icra vəziyyətini öyrənir, onların monitorinq və qiymətləndirilməsinin müasir tələblərə uyğun qurulması ilə bağlı müvafiq təkliflər verir.

Bu fəsildə daxili bitkiçilik məhsulları bazarının qorunması mexanizmlərinə toxunulmuş, tarif və qeyri-tarif vasitələrinin səmərəli əlaqələndirilməsinin vacibliyi vurğulanmışdır. Tədqiqat zamanı müxtəlif ölkələrdə tətbiq olunan qeyri-tarif vasitələri öyrənilmişdir. Araşdırmalar göstərmişdir ki, dünya ölkələri bazarına qorumaq üçün də müxtəlif qeyri-tarif bariyerləri tətbiq edirlər. Məsələn, Cənubi Afrika Respublikasının konyak (*brandy*) ilə bağlı tərtib etdiyi qaydalar diqqət çəkir. Dünyanın əksər ölkələri qəbul edir ki, konyak 2 illik olmalıdır və tərkibindəki spirtin faizi 40 olmalıdır. Lakin Cənubi Afrikada konyak üçün minimum 43% spirt və 3 il müddət nəzərdə tutulur. Yəni Cənubi Afrikanın bu qeyri-tarif tənzimləməsi xarici istehsalçılar üçün baryer rolu oynayır.

İşdə qeyd edilmişdir ki, kvotalar əslində qeyri-tarif maneələrinin ən tipik nümunəsidir. Azərbaycana kənd təsərrüfatı məhsullarının idxalına kvota qoyulması məsələsi zaman-zaman gündəmdə olmuşdur.

Bu fəsildə bitkiçilikdə risklərin azaldılması və davamlı inkişaf vasitələrinin formalaşdırılması məsələsinə də toxunulmuşdur. İşdə göstərilir ki, bitkiçilikdə risklərin azaldılması və kənd təsərrüfatı sığortası mexanizmlərinin təkmilləşdirilməsi çox vacibdir. Tədqiqatda 2015-ci il üzrə Azərbaycan Respublikasında fəaliyyət göstərən sığorta şirkətlərinin kənd təsərrüfatı üzrə göstərdiyi xidmətlər də öyrənilir. Göstərilir ki, ölkədəki 27 sığorta şirkəti fəaliyyət göstərsə də onlardan ancaq 8-i kənd təsərrüfatı üzrə xidmətlər təklif edir. Bu şirkətlərdən də ancaq 5-i həm kənd təsərrüfatı bitkiləri məhsullarının, həm də kənd təsərrüfatı heyvanlarının sığortası ilə məşğuldur.

Digər tərəfdən sığorta şirkətlərinin hamısı hüquqi şəxslərə xidmət göstərsə də onların bir hissəsi ailə-kəndli təsərrüfatları ilə işləməyə maraqlı deyillər. Kənd təsərrüfatının potensialı böyük olsa da 2015-ci ildə respublika üzrə yığılan sığorta haqlarının 0,57 faizi bu sahənin payına düşür və əkin sahələrinin 1 faizindən də azı sığortaya cəlb olur. Təəssüfedici hal isə ondan ibarətdir ki ölkədə aqrar sığorta üzrə ixtisaslaşmağa çalışan sığorta şirkətinin fəaliyyəti uğurlu olmayıb. İşdə kənd təsərrüfatında sığorta sistemi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyi vurğulanmış və kənd təsərrüfatı sahəsi üzrə sığorta fondunun yaradılması ilə bağlı müvafiq mexanizmlər hazırlanmışdır. İşdə "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" ASC-nin yaradılması müsbət addım kimi qeyd edilmiş və ölkədə risklərin azaldılması məqsədilə kredit reytinq sisteminin tətbiqini müəyyənləşdirən qaydanın layihəsinin və digər risk menecmenti alətlərinin tətbiqinə dair təkliflər hazırlanması prosesinin sürətləndirilməsinin zəruriliyi vurğulanmışdır.

Tədqiqatın sonuncu paraqrafında rəqabətqabiliyyətli bitkiçilik məhsulları üzrə istehsal potensialının gücləndirilməsi məsələlərinə yer verilmişdir. Burada 2014-2015-ci illər üzrə məlumatlara əsasən aparılan hesablamada seçilmiş bitkiçilik məhsullarının DRC əmsalı 1-dən kiçik olduğu aydınlaşmışdır. Yəni bu məhsulların rəqabətqabiliyyətlilik səviyyəsi yüksəlmişdir. Şübhəsiz ki, Azərbaycan manatının 2015-ci ildəki devalvasiyasının da bu prosesə təsiri olmuşdur.

Bu hesablamaların yekunu olaraq qeyd edə bilərik ki, müxtəlif tədqiqat metodları ilə aparılan qiymətləndirmələr göstərir ki, Azərbaycanda istehsal edilən əksər bitkiçilik məhsulları rəqabətqabiliyyətlidirlər.

Qeyd edək ki, tədqiqat zamanı Aşkar Müqayisəli Üstünlük və Xalis İxrac İndeksi metodlarından, DRC əmsalından istifadə etməklə apardığımız təhlillər də qeyd edilən bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyini göstərmişdir. Həmçinin qarşıdakı illərdə onların inkişaf potensialının mövcud olduğu da aşkarlanmışdır. Ümumilikdə isə tədqiqatımızın nəticəsi kimi deyə bilərik ki, Azərbaycanda rəqabətqabiliyyətli bitkiçilik məhsullarının istehsal potensialı böyükdür. Onun üçün bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində qarşıdakı illərdə də tədbirlər davam etdirilməli, xüsusən bazarda rəqabətin daha da yaxşılaşdırılmasına nail olunmaqla əlverişli biznes mühiti formalaşdırılması, məhsul istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin



Cədvəl 8

2014-2015-ci illər üzrə Azərbaycanda seçilmiş bitkiçilik məhsullarının DRC əmsalı

| Məhsulun adı | 2000-2003-cü illər üçün DRC əmsalı | 2014-2015-ci illər üçün DRC əmsalı (orta göstərici) | 2020-ci il üçün proqnoz | |
|---|---|---|---|---|
| | | | yalnız qiymət təsiri | Qiymət və məhsuldarlıq təsiri |
| Buğda | 1.242 | 0.946 | 0.980 | 0.905 |
| Arpa | 1.477 | 0.959 | 0.945 | 0.901 |
| Çəltik | 0.495 | 0.704 | 0.723 | 0.701 |
| Qarğıdalı | 1.202 | 0.536 | 0.654 | 0.605 |
| Günəbaxan | 0.846 | 0.889 | 0.987 | 0.901 |
| Yonca | 1.072 | 0.540 | 0.652 | 0.603 |
| Şəkər çuğunduru | – | 0.694 | 0.982 | 0.807 |
| Üzüm | 0.825 | 0.689 | 0.665 | 0.678 |
| Alma | 0.813 | 0.684 | 0.727 | 0.789 |
| Naringi | 0.291 | 0.798 | 0.887 | 0.918 |
| Nar | 0.619 | 0.657 | 0.642 | 0.607 |
| Fındıq | 1.064 | 0.533 | 0.523 | 0.509 |
| Pomidor | 0.431 | 0.566 | 0.547 | 0.576 |
| Kartof | 0.955 | 0.542 | 0.578 | 0.503 |
| Pambıq (Mahlıc) | 1.618 | 0.771 | 0.758 | 0.703 |
| Tütün | 0.311 | 0.625 | 0.796 | 0.802 |
| Xurma (korolyok) | – | 0.524 | 0.667 | 0.706 |
| Xiyar | – | 0.547 | 0.542 | 0.644 |
| Soğan | – | 0.584 | 0.685 | 0.715 |

Qeyd: 2000-2003-cü illər üçün DRC əmsalı Dünya Bankının ekspertləri tərəfindən hesablanmışdır. 2014-2015-ci illər üzrə DRC hesablanması isə ölkə üzrə (Naxçıvan MR istisna olmaqla) 4 min bitkiçilik təsərrüfatından toplanan məlumat əsasında aparılmışdır.

inkişaf etdirilməsi, maliyyə resurslarına çıxışın asanlaşdırılması, bazar infrastrukturunun təkmilləşdirilməsi və bazara çıxış imkanlarının yaxşılaşdırılması, məsləhət-informasiya xidmətlərinin inkişaf etdirilməsi və s. istiqamətlərdə kompleks işlər görülməlidir.

Bu isə onu göstərir ki, Azərbaycanda çoxsahəli kənd təsərrüfatının formalaşdırılması və inkişaf etdirilməsi sahəsində ölkənin təbii iqlim şəraitinin yaratdığı imkanların reallaşdırılması istiqamətində başlanılan fəaliyyət dərinləşdirilməlidir.

Şübhəsiz ki, Prezidentin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilən milli iqtisadiyyat, həmçinin iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin icrası **və** bu istiqamətdəki fəaliyyəti də gücləndiriləcək. Bu yol xəritəsində Azərbaycan Respublikasında rəqabətqabiliyyətli kənd təsərrüfatı sektorunun formalaşdırılması əsas hədəflərdən biridir. Amma birinci mərhələdə rəqabətqabiliyyətli məhsul istehsalına fokuslaşmaq lazımdır. Rəqabətqabiliyyətli məhsul istehsalının artırılması növbəti mərhələdə bitkiçilik sektorunda rəqabətqabiliyyətliyinə müsbət təsir edəcək.

İşdə aparılan araşdırmalar göstərir ki, hazırda əsas problemlərdən biri bitkiçilik məhsullarımızın inkişaf etmiş bazarlara çıxışıdır. Bitkiçilik məhsullarının xarici bazarlarda rəqabətqabiliyyətliliyinin gücləndirilməsi və ixracın stimullaşdırılması üçün aşağıdakı istiqamətlər üzrə müvafiq tədbirlərin görülməsi tövsiyə edilir:

- regionlarda meyvə-tərəvəz məhsullarının ixrac bazarları üçün toplanması, çeşidlənməsi, qablaşdırılması və markalanması xidmətlərini təmin edən logistika mərkəzlərinin inkişaf etdirilməsi;
- ümumi tutumu 500-1000 ton olan belə logistik mərkəzlərin ölkənin əsas ixrac rayonlarında, iri ixracatçıların iştirakı ilə qurulması üçün həm güzəştli kreditlərin ayrılması, həm də dövlətin payı olan investisiya şirkətlərinin cəlb edilməsi;
- müxtəlif çeşiddə və yaxşı keyfiyyətdə qablaşdırma və tara materiallarının yerli istehsalının genişləndirilməsi üçün müvafiq dəstək tədbirlərinin göstərilməsi;
- kənd təsərrüfatı məhsulları ixracatçılarının peşəkar ictimai birliyinin (assosiasiyanın) təşkilatlanmalarının dəstəklənməsi. Qeyd edək ki, 2016 və 2017-ci illərdə İqtisadiyyat Nazirliyinin dəstəyi ilə ixracatçıların və istehsalçıların assosiasiyalarının yaradılması sürətlənmişdir. Artıq Şərab, Nar, Fındıq, Xurma, Meyvə-Tərəvəz, Tekstil İxracatçıları və İstehsalçıları Assosiasiyaları yaradılmışdır. Amma bu assosiasiyaların yaradılması işin ilk mərhələsidir və onların səmərəli fəaliyyətinin təmini vacibdir;

kənd təsərrüfatı məhsullarının daşınması baxımından mühüm əhəmiyyətə malik olan refrijeratorlar, vaqon-termoslar və vaqon-ledniklərdən ibarət vaqon parkı ilə təminatın gücləndirilməsi, həmçinin bu cür vaqonlarla kənd təsərrüfatı məhsullarının daşınmasına görə daha əlverişli tariflərin tətbiq edilməsi;



- ixracatçıların yük daşımaları ilə bağlı ixtisaslaşmış avtonəqliyyat vasitələri ilə təminatının yaxşılaşdırılmasına dəstəyin göstərilməsi;
- güzəştli kreditlər hesabına ixrac əməliyyatlarının maliyyələşdirilməsi mexanizminin yaradılması;
- mənşə sertifikatının verilməsi prosedurunda bitkiçilik məhsullarına fərqli yanaşmanın tətbiqi. Yəni bitkiçilik məhsullarına bu sertifikatın verilməsi səlahiyyəti Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinə həvalə olunması məsələsi araşdırılmalıdır. Bunun tətbiqi xüsusən tez xarab olan kənd təsərrüfatı məhsullarının ixracı zamanı sahibkarların vaxta, vəsaitə və əmək qüvvəsinə olan qənaətinə səbəb olar bilər. Eyni zamanda bu, dövlət qurumlarının da işlərinin optimallaşdırılmasına və beynəlxalq təcrübədə olduğu kimi şirkətlərin ixrac xərcləri məhsulun dəyərinin 1%-i civarında olmasının təmin edilməsinə xidmət edərdi. Bu məsələdə Türkiyə Respublikasının da təcrübəsindən yararlanmaq olar. Bu ölkədə Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyi müvafiq sertifikatları verir;
- bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar sertifikatı verilərkən bitkilərin yararlılıq müddəti nəzərə alınaraq müvafiq siyahı hazırlana bilər. Yəni müraciətdən asılı olaraq tez xarab olan məhsullar 1 gün, digərlərinə isə differensial müddətlərdə (2 və ya 3 gün) sertifikat verilə bilər.

Onu da qeyd edək ki, qısamüddətli tədbir olaraq kənd təsərrüfatı və ərzaq məhsullarının keyfiyyətinin idarə edilməsi sahəsində ixtisaslaşmış Avropa mənşəli və ya Türkiyə mənşəli bir sertifikatlaşdırma şirkəti ilə birgə müəssisə yaradıla bilər. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda Sərbəst Satış Sertifikatının verilməsi ilə bağlı məsələnin bu ilin sentyabr ayında həllini tapması da müsbət haldır.

Strateji yol xəritəsinə uyğun olaraq qarşıdakı illərdə respublikada həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli olan kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialı gücləndirilməli, idxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının artırılmasının təşviqi edilməlidir. Kompleks layihələrin həyata keçirilməsi üçün dövlət-özəl sektor tərəfdaşlığının inkişafına nail olunmalıdır.

Dissertasiyanın nəticə bölməsində aparılan tədqiqat zamanı əldə

edilən nəticələr ümumiləşdirilmiş və elmi cəhətdən əsaslandırılmış təkliflər və tövsiyələr verilmişdir.

Dissertasiya işinin əsas müddəaları və işdən irəli gələn əməli təkliflər aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:


1. Əhalinin ərzaq məhsulları ilə təminatında ekoloji təmiz kənd təsərrüfatının rolunun artırılması. Azərbaycan Aqrar Elmi jurnalı, № 4-5, 2008, səh.17-20.

2. Azərbaycanın ÜTT-yə üzvlük prosesində ixracı subsidiyalaşdırmamaq barədə götürdüyü öhdəlik və onun ölkənin kənd təsərrüfatı məhsulları istehsalçılarına təsiri. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi əsərləri № 5, 2008, səh. 66-70.

3. Kənd təsərrüfatının çoxfunksiyalılığı: qlobal iqtisadi sistemdə onun yeri və rolu. Monoqrafiya, Bakı, "MBM" nəşriyyatı, 2008, 336 s.

4. Azərbaycan Respublikasının ÜTT-yə üzvlük ərəfəsində aqrar sahənin dövlət tənzimlənməsinin istiqamətləri. Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 2009, səh. 141-150.

5. Azərbaycanın kənd yerlərində yoxsulluğun azaldılması və dayanıqlı inkişaf problemi. AMEA, İqtisadiyyat İnstitutu Elmi əsərləri № 2, 2009, səh. 294-301.

6. Azərbaycan Respublikasında biotexnoloji (GDO-lu) kənd təsərrüfatı məhsullarının istehsal imkanları. AMEA Xəbərləri İqtisadiyyat elmləri seriyası, № 3, 2009, səh. 113-117.

7. Проблемы устойчивого развития аграрной сферы в Азербайджанской Республике. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi əsərləri № 1-2, 2009, səh. 5-12.

8. İqlim dəyişikliyi və bioenerji konfransında qaldırılan məsələlərə Azərbaycan Respublikasının prizmasından baxış. İqtisadiyyat və Audit jurnalı № 9 (111), 2009, səh. 29-33.

9. Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalının təşviqi mexanizmləri. "Əhalinin ərzaq məhsulları ilə etibarlı təmini problemləri" konfransının materialları Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Bakı, 2009, səh. 57-60.

10. Aqrar sektorda kiçik ölçülü təsərrüfatların potensialının gücləndirilməsi yolları. Azərbaycan Aqrar Elmi jurnalı, № 3-4, 2010, səh. 20-23.





11. Dünyada kənd təsərrüfatı biotexnologiyasının inkişaf perspektivləri. İnnovasiyalı kənd təsərrüfatının inkişaf problemlərinə həsr edilmiş beynəlxalq konfransın materialları. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Bakı, 2010, səh. 99-104.

12. Проблемы занятости в сельской местности Азербайджана. «Актуальные проблемы социально-трудовых отношений». Сборник научных трудов по материалам Международная научно-практическая конференции. Институт социально-экономических исследований Дагестанского научного центра РАН; Махачкала, 2010. стр.173-174.

13. Роль аграрного сектора в повышении уровня жизни населения в сельских регионах. «Социально-экономические проблемы и перспективы развития в сфере труда». Материалы Международной научно-практическая конференции. Омск, 8 апреля 2010 г. стр.210-213.

14. Kənd turizmi kəndin inkişaf amili kimi. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri № 3, 2010, səh. 60-66.

15. Azərbaycanın qeyri-ticarət məsələləri: problemlər, nəticələr və təkliflər. "Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya" III Beynəlxalq konfransın tezisləri. Bakı, 15-17 oktyabr 2010, səh. 127-128.

16. Azərbaycanda aqrar-sənaye klasterlərinin yaradılmasının kiçik təsərrüfatların inkişafına təsiri. "Gənc alimlərin I respublika innovativ ideya yarmarkası" çərçivəsində keçirilən konfransın materialları. Bakı, 18-23 noyabr 2010, səh. 327-333.

17. Azərbaycanda ixtisaslaşdırılmış orta və iri təsərrüfatların təşkilini şərtləndirən amillər. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. № 4, Bakı, 2010, səh. 80-90.

18. Azərbaycanın kənd təsərrüfatında "Xüsusi məhsullar"ın müəyyənləşdirilməsi meyarları. "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meyilləri" mövzusunda respublika elmi-praktik konfransının materialları. AMEA İqtisadiyyat İnstitutu. Bakı, 2010, səh. 212-215.

19. Azerbaycan'da Petrole Dayalı Ekonomiden Çok Sektörlü Ekonomiye Geçişin Gerekliliği ve Tarım. "Bilig" Türk Dünyası Sosyal Bilimler Dergisi 59. sayı (Güz 2011), Ankara, Türkiyə 2011 səh. 147-166. http://yayinlar.yesevi.edu.tr/index.php.action=show_article&-bilig_id=48&article_id=633.

20. Azərbaycanda aqrar sahədə böyük təsərrüfatların yaradılmasının

bəzi məsələləri. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri № 2, 2011, səh. 16-23.

21. İqlim dəyişikliyinin kənd təsərrüfatına mənfi təsirləri və innovasiyaların tətbiqi. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, № 1, 2011, səh. 125-131.

22. Әзірбайжан Республикасының қазіргі аграрлық даму стратегиясы (Azərbaycan Respublikasının müasir aqrar inkişaf strategiyası) С.Сейфуллин атындағы ҚазАТУ-ң ғылым жаршысы / Вестник науки КазАТУ им. С.Сейфуллина. – 2011. - №3(70). – С.50-57 http://kazatu.kz/science/vn1103eco02.pdf.

23. Kənd təsərrüfatında məşğulluğun təhlili və kəndlərdə alternativ fəaliyyət sahələrinin təşkili məsələsi. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri №3, 2011, səh. 212-219.

24. Biotexnoloji kənd təsərrüfatının inkişafı və Azərbaycanda ərzaq təhlükəsizliyi. "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri". Beynəlxalq elmi-praktik konfransın materialları və tezisləri. AMEA İqtisadiyyat İnstitutu, Bakı, 2011, səh. 90-94.

25. Aqrar sahənin inkişafında intensiv metodların prioritetliyinin təmin edilməsi zərurəti. "Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Bakı, 2011, səh. 359-362.

26. Sahibkarların kooperativlərdə birləşməsi və ixtisaslaşmış orta və iri təsərrüfatlarının təşkilinin stimullaşdırılması məsələləri. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri № 1, 2012, səh. 217-223.

27. Rəqabətqabiliyyətli məhsul istehsalı Azərbaycanın aqrar inkişaf strategiyasının mühüm şərti kimi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 50 illik yubileyinə həsr olunmuş "Aqrar iqtisadiyyatın aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, səh. 245-248.

28. Aqrar sahənin dayanıqlı inkişaf problemləri. Kollektiv monoqrafiya. Bakı, 2012, 438 s.

29. Taxıl məhsulları ilə özünütəminetmə: reallıqlar və perspektivlər. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi əsərləri № 1, Bakı, 2013, səh. 65-77.



30. An analysis of the agricultural subsidy policy in Azerbaijan.The Journal of Academic Social Science Studies. Volume 6 Issue 7, p. 545-562, July 2013. Doi number: http://dx.doi.org/-10.9761/JASSS1616 http://www.jasstudies.com/Makaleler/1784617980_-30HuseynRamil-545-562.pdf

31. Bitkiçilik məhsullarının rəqabət qabiliyyətinin artırılması imkanları. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi əsərləri. № 1, Bakı, 2014, səh. 13-20.

32. Azərbaycanda rəqabətqabiliyyətli bitkiçilik məhsulları istehsalı məsələləri. "Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya" IV Beynəlxalq konfransın tezisləri. Bakı, 02-03 may 2014, səh. 570-575.

33. Ailə kəndli təsərrüfatlarının rəqabət qabiliyyətinin artırılmasının əhəmiyyəti. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Milli Qurtuluş gününə həsr olunmuş "Gənc alimlərin kənd təsərrüfatında rolu: problemlər və imkanlar" mövzusunda beynəlxalq konfransın materialları. Bakı, 17-18 iyun 2014, səh. 249-251.

34. Application of the Hungarian FADN practis in Azerbaijan: results and prospects. The Journal of Academic Social Science Studies. Number: 27, p. 39-53, Autumn I 2014._Adiyaman / TURKEY. Doi number:http://dx.doi.org/10.9761/JASSS2433.

35. The establishment of Farm Data System in Azerbaijan. Economy and Sociology. Theoretical and scientifical journal. Nr. 2 / 2014. Chisinau, Moldova, p.47-52.

36. Rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının artırılması məsələləri. Azərbaycan Aqrar Elmi jurnalı, № 4, 2014, səh.7-12.

37. Koreya Respublikasının anbar-tədarük və topdansatış bazar infrastrukturunun inkişafı sahəsindəki təcrübəsi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi əsərləri. № 2, Bakı, 2015, səh. 26-35.

38. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və ixracının makroiqtisadi şəraiti. Azərbaycan Aqrar Elmi jurnalı, № 2 (237), 2015, səh.3-7.

39. Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sığortalanmasının qiymətləndirilməsi. Azərbaycan Turizm və Menecment Universiteti, «Turizm və qonaqpərvərlik tədqiqatları» jurnalı, il 4, say 3, Bakı, 2015, səh. 36-45.

40. Fermer təsərrüfatlarının rəqabət qabiliyyətinin artırılması aqrar siyasətin mühüm istiqamətlərindən biri kimi. "Azərbaycanın

qeyri-neft sektorunda innovasiya fəaliyyətinin genişləndirilməsi” mövzusunda Respublika elmi konfransının materialları. Bakı, 2016, səh.258-262.

41. Kənd təsərrüfatı istehsalının sığortalanmasında əsas payı olan sığorta şirkətlərinin fəaliyyətinin təhlili. “Geostrategiya” jurnalı, № 02 (32), Bakı, 2016, səh. 9-13.

42. The international competitive-ness of Azerbaijanian agriculture: look through years of independence. Bağımsızlıklarının 25. Yılında Türk Cumhuriyetleri Sempozyumunun materialları. Ankara, Türkiyə, 6-7 oktyabr 2016. http://turkcumhuriyetleri.-yesevi.edu.tr/program.pdf.

43. Analysis of the sustainability Indicators of socio-economic development in Azerbaijan by multi-dimensional statistical methods. International Journal of Economics and Society. Memphis, USA March 2016, Volume 2, Issue 5, page 11-16. http://www.ij-ournales.org/archive/volume2016/issue5/1.pdf

44. Aqrar sahədə strateji menecmentin əhəmiyyəti. Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi əsərləri. № 2, Bakı, 2016, səh. 19-24.

45. Bitkiçilik təsərrüfatlarında sahələrin vəhdəti və ölçülərinin optimallaşdırılması məsələləri. “Azərbaycanda torpaq islahatı – 20: nailiyyətlər və perspektivlər” mövzusunda ümumrespublika elmi-praktik konfransın materialları. Bakı, 2016, səh.101-105.

46. Kənd təsərrüfatında rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılmasında dövlət proqramlarının rolu. Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi əsərləri. № 4, Bakı, 2016, səh. 11-18.

47. Azərbaycan Respublikasında mərci istehsalının, idxalının və ixracının mövcud vəziyyətinin təhlili. Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi əsərləri. № 1, Bakı, 2017, səh. 153-160.



**Р. З. Гусейн**

## Проблемы повышения конкурентоспособности продукции растениеводства в Азербайджанской республике

## РЕЗЮМЕ

Диссертация посвящена проблемам повышения конкурентоспособности продукции растениеводства в стране.

Во введении дана актуальность темы, состояние изученности проблемы, цель и задачи исследования, объект и предмет, теоретико-методологические основы, научная новизна и практическая значимость, апробация и внедрение результатов, структура и объем работы.

Первая глава диссертации называется «Теоретические и методологические основы конкурентоспособности продукции растениеводства». Здесь отражены экономическая сущность и структура конкурентоспособности, особенности формирования и критерии конкурентоспособности продукции растениеводства, методические подходы для оценки конкурентоспособности продукции растениеводства.

Вторая глава диссертации называется «Условия и факторы формирования конкурентных преимуществ в растениеводстве в эпоху глобализации». – В этой главе оценено воздействие экономических глобализационых механизмов на конкурентную среду продукции растениеводства, согласованы парадигмы конкурентоспособности продукции растениеводства и продовольственной безопасности, указаны основные факторы формирования конкурентоспосбности продовольственной продукции и продукции растениеводства в условиях глобализации.

Третья глава диссертации называется «Системно-структурный анализ производства продукции растениеводства и оценка конкурентоспособности». Здесь определены основные критерии изменения конкурентоспособности продукции растениеводства на внутреннем рынке, оценено современное состояние конкурентоспособности продукции растениеводства на внешнем рынке.

Четвертая глава диссертации называется «Основные направления повышения конкурентоспособности сельскохозяйственного производства». В этой главе исследуются вопросы

повышения эффективности растениеводства на основе модернизации, повышения показателей качества и урожайности продукции растениеводства, развития инфраструктуры и оптимизации продукции растениеводства. Кроме того, применение стратегического менеджмента и создания маркетинговых услуг было исследовано как инструмент повышения конкурентоспособности.

Пятая глава диссертации называется «Совершенствование механизмов повышения конкурентоспособности продукции растениеводства». В этой главе применен механизм защиты внутреннего рынка продукции растениеводства, согласовано экономическое использование тарифных и нетарифных средств. Кроме того, определены направления совершенствования механизмов снижения рисков и повышения производственного потенциала продукции растениеводства.

В результате исследований был представлен комплекс выводов, предложений и рекомендаций по повышению конкурентоспособности продукции растениеводства на основе различных анализов, применения DRC, RCA и других показателей.



**R. Z. Huseyn**

**The problems of increasing of competitiveness of plant-growing products in the Republic of Azerbaijan**

## SUMMARY

The dissertation is devoted to the problems of increasing the competitiveness of plant-growing products in the country.

In introduction information about actuality of the topic, the purpose and tasks of research, its objects , the theoretical and methodological bases, the sources of information, the scientific novelty and the practical importance, approbation and implementation of results, the structure and the volume of the dissertation have been provided.

The first chapter of the dissertation is called "Theoretical and methodological bases of competitiveness of plant-growing products". It reflects the economic essence and structure of competitiveness, the features of the formation and criterias of the competitiveness of plant-growing, methodological approaches for assessing the competitiveness of plant-growing.

The second chapter is called "The conditions and factors of formation of competitive advantages in plant-growing in the globalization". In this chapter the impact of economic globalization mechanisms on the competition environment of plant-growing is evaluated, competitiveness of plants and food security paradigms are harmonized, the major factors of formation of competitiveness of food and plants in the context of globalization are identified.

The third chapter of the dissertation is called "System-structural analysis and assessment of the competitiveness of crop production." In this chapter the overall production system of plant-growing products, the main trends of changes of competitiveness in domestic market are analysed, the current state of competitiveness of plnts on the foreign market is evaluated. Also, the processing sector and plant-growing is linked from the perspective of impact on competitiveness of plant-growing products.

The fourth chapter of the dissertation is called "The main directions of improving the competitiveness of plant-growing products". In this chapter the issues of increasing the efficiency of

plant-growing on the bases of modernization, increasing of quality and yield indicators of plants, development of infrastructure and optimization of plant-growing farms are explored. Also, application of strategic management and establishment of marketing services have been researched as the tools for increasing the competitiveness.

The fifth chapter of the dissertation is called "Improvement of the mechanisms increasing competitiveness of plant-growing products". In this chapter, the directions of increasing the competitiveness through state support, the mechanisms for protection of domestic market of cplants through efficient linkage of tariff and non-tariff means are given. Also, the directions of formation of risk reducing mechanisms and increasing the production potential for plants are defined.

In result of researche there was provided a complex of conclusions, offers and recommendations upon increasing the competitiveness of plants based on different analysis, application of DRC, RCA and other indicators.



**Çapa imzalanıb: 29. 09. 2017**
**Sayı 100. Formatı 60x84 1/16**

**KTİETİ-nun "Elmi əsərlərinin" buraxılışı bölməsində çap olunmuşdur**

**(012) 514-84-10**